**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**YƏDULLA BƏBİR OĞLU AĞAZADƏ**

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA SATİRİK POEZİYANIN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: **Bəkir Əhməd oğlu Nəbiyev**
AMEA-nın həqiqi üzvü,
filologiya üzrə elmlər doktoru

Rəsmi opponentlər: **Rafiq Yusif oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Aydın Müstəcəb oğlu Abıyev**
filologiya üzrə elmlər doktoru, professor

**Elman Hilal oğlu Quliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrası

Müdafiə «_22____» _04__ 2013-cü il saat ___-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1143, Bakı, H.Cavid prospekti, 31, Akademiya şəhərciyi, Əsas bina, V mərtəbə, otaq 552

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «_____» __________ 2013-cü ildə göndərilmişdir.

Dissertasiya
Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru: **İmamverdi Yavər oğlu Həmidov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Satira, tənqidi şeir, başqa sözlə desək, gülünclüyə, eybəcərliyə qarşı köklənən bədii gülüş əslində cəmiyyətdə pozulmuş düzənin, ləkəli batinin üzə çıxarılmasına, müalicəsinə xidmət edir. Bədii söz meyarları genişləndikcə satiranın mövqeyi də güclənmiş, sağlam niyyətlərə daha cəsarətlə xidmət etmişdir. Odur ki, tədqiqatçılar çox zaman satiranı, xüsusən Sabir satirasını obrazlı şəkildə həyatverici günəşə bənzətmişlər: «Günəş bir sıra mikrobların ən amansız düşmənidir, gülüş və satira ədəbiyyat və şeirin günəşidir. Servantes, Svift, Qoqol, Molyer, Qriboyedov, Mirzə Fətəli, Molla Nəsrəddin və başqaları real göstərdikləri həyatın mikroblarını öz satira günəşləri altında məhv etməmişdimi? Sabirin də realizmini onun gülüşü, satirası tamamlayır»[1].

Bəllidir ki, həm şifahi xalq ədəbiyyatı qaynaqlarında, həm də yazılı ədəbiyyatın ilkin nümunələrində gerçəkliyə münasibətdə əsasən öyüd-nəsihət, tərənnüm tipli yazılar üstünlük təşkil etmişdir. Həmin bədii təfəkkür nümunələrilə əslində gəncliyə, gələcək nəslə olub-keçənlər, baş verən hadisələr haqqında poetik informasiyalar verilmiş, onların diqqəti dünyanın dərkinə, düzgün, qanunauyğun yaşayış tərzinin qurulmasına yönəldilmiş, həyatda rast gəlinən məhrumiyyət və uğursuzluqlar kədərli və nisgilli notlarla dilə gətirilmişdir. Lakin cəmiyyətin inkişafı nəticəsində insanlar arasındakı təbəqələşmənin getdikcə daha aydın nəzərə çarpması ümumxalq nəzərində fərqli yanaşmaları, ziddiyyətli məqamları ortaya qoymuşdur. Qədim və orta əsrlərdə bu cür hallara ictimai-ədəbi münasibət daha çox dini-fəlsəfi mahiyyətdə üzə çıxırdısa, XVIII əsrin sonları və XIX əsrin əvvəllərində ictimai etiraz, tənqid və tədricən satira yaradıcılığı kimi ifadə olunurdu.

Məsələyə tarixi-xronoloji aspektdən yanaşdıqda Azərbaycan ədəbiyyatında satirik poeziyanın uzun bir inkişaf dövrü keçirdiyini, ilkin qaynaqlardan bəhrələnərək dövrdən-dövrə yeni məzmun, ictimai kəsər əldə etdiyini, ədəbi hadisəyə çevrildiyini qeyd etməliyik. Bir cəhəti də qeyd edək ki, bütün bu illərdə, müxtəlif zamanlarda şərə qarşı etiraz və həmin etirazın bədii təcəssümü özünü fərqli şəkillərdə - yüksələn, eləcə də enən xətlərlə göstərmişdir.

Satirik poeziya sonrakı dövrlərdə, xüsusən XX əsrin əvvəllərində hər cəhətdən yüksələn xətlə inkişaf edərək özünün kamil pilləsinə – inqilabi

---

[1] Nazim Ə. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1979, s. 363-364

satira mərhələsinə çata bilmişdir. Lakin bu da həqiqətdir ki, Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı prosesinə müxtəlif elmi münasibətlərin mövcudluğu, bir çox hallarda ictimai-fəlsəfi məzmun daşıyan, dövrdən, zamanədən narazılıq ifadə edən ciddi şeirlərin də satirik poeziya nümunələri hesab olunması hallarına yol verilmişdir. Odur ki, ədəbiyyatşünaslığımız üçün heç də yeni olmayan, ənənəvi elmi problemin daha əhatəli tədqiqi, bədii-tarixi həqiqətin ortaya qoyulması təxirəsalınmaz vəzifə olaraq qarşıda durur və mövzunun, problemin aktuallığını, araşdırılması zərurətini əsaslandırır.

Ədəbiyyatda satiranın təşəkkülü və inkişaf xüsusiyyətləri elmi-ictimai fikirdə ona marağın getdikcə artmasını təmin etmişdir. Dünya filoloji fikrində olduğu kimi, Azərbaycan elmi-nəzəri fikrində də bu sahəyə zaman-zaman ayrıca diqqət yetirilməyə başlanmışdır. Maraqlıdır ki, bədii fikirdə satira və yumor, onun əhəmiyyəti və ictimai həyatda yeri barədə ilk olaraq nəzəri səpkidə fikir söyləyənlər yazıçılar, mütəfəkkir ediblərin özləri olmuşdur. Mirzə Fətəli Axundzadənin, Nəcəf bəy Vəzirovun, Məhəmməd Hadinin məqalə və məktublarında, Xaqani, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və başqa şairlərin ayrı-ayrı şeirlərində satiraya, tənqidi şerin ictimai-mədəni əhəmiyyətinə xüsusi qiymət verilmişdir. Lakin onu da qeyd etmək lazımdır ki, bu zaman əslində əksər hallarda həcv anlayışı altında satirik şeir başa düşülmüş, elmi-bədii aspektdə izah olunmuşdur. Ədəbi tənqid və ədəbiyyatşünaslıq elmi inkişaf etdikcə bu istilahların məna fərqləri də aydınlaşmışdır.

Beləliklə, həcv deyəndə ideya-bədii cəhətdən zəif olub, əxlaqi baxımdan məqbul sayılmayan ifadələrlə dolu nəzm parçaları nəzərdə tutulmuş, satira və satirik şeir deyiləndə isə ideya-estetik cəhətdən yüksək sənət nümunəsi olan poeziya örnəkləri başa düşülmüşdür.

Unutmaq olmaz ki, bədii ədəbiyyatda satiranın, satirik gülüşün təzahür forma və üsulları da müxtəlifdir. Məlum olduğu kimi, satira bədii gülüşdür, eybəcərliyin ifşasıdır. Satirik əsərlərdə həyat həqiqətləri satirik gülüş fonunda təqdim olunur. Hər bir təqdimat isə digərindən seçilir. Bədii sənətdə, ədəbiyyatda bu mühüm keyfiyyətləri nəzərə alan Aristotel (e.ə.384 – e.ə.322) məşhur «Poetika»sında demişdir: «Epik və fəci poeziya, həmçinin komediya və difirambik poeziya, avletika və kifaristikanın böyük bir qismi – bütün bunlar hamısı, ümumiyyətlə desək, təqlidi sənətlərdir; bu sənətlər bir-birindən üç cəhətdən: ya təqlidin nə ilə olduğuna, ya nəyin təqlid olduğuna, ya da təqlidin necə olduğuna görə fərqlənir ki, bunlar da həmişə

eyni cür olmur»[1].

Aristotel faciə ilə komediyanı qarşılaşdıraraq ikinciyə üstünlük vermiş, komik əsərlərin daha qədimdən yarandığını xüsusi qeyd edərək satira yaradıcılığı haqqında aşağıdakı maraqlı fikirlərini bildirmişdir: «Komediya, dediyimiz kimi, pis adamların əks etdirilməsidir, amma bunu da tam qəbahət mənasında yox, o mənada başa düşmək lazımdır ki, gülməli olanın özü də eybəcərliyin bir hissəsidir: gülməli – heç kimə iztirab və zərər verməyən, hər hansı bir müəyyən səhv və çirkinlikdir; misal üçün, uzağa getmək lazım deyil, elə komik maska özü bir növ eybəcər və çirkindir, ancaq iztirab ifadə etmir»[2].

Elmi-nəzəri fikirdə satirik poeziya bədii yaradıcılığın ayrıca götürülmüş və xeyli dərəcədə müstəqil şəkildə inkişaf etmiş bir sahəsi kimi qəbul edilmiş, ictimai həyatda, eləcə də bədii-estetik düşüncədə onun əhəmiyyətinə, inkişaf mərhələləri və sənətkarlıq məsələlərinə xüsusi diqqət verilmişdir. Azərbaycan və dünya ədəbi-estetik fikrində satiranın yaranma və inkişaf mərhələlərinin nəzəri və təcrübi əsaslarına, ədəbi-tarixi şəxsiyyətlərin həyat və yaradıcılıqlarına aid çoxlu sayda elmi əsərlər yazılmışdır. Həmin əsərlər satira və yumor barədə, satirik poeziyanın ayrı-ayrı nümayəndələri haqda müəyyən elmi təsəvvür yaratsa da, milli ədəbiyyatşünaslığımızda satiranın və satirik poeziyanın ümuminkişaf qanunauyğunluqları, təşəkkül dövrü, inkişaf mərhələləri, poetik xüsusiyyətləri ilə əlaqədar indiyədək xüsusi elmi-tədqiqat əsəri yazılmamışdır. Halbuki belə bir işin görülməsinə imkan verən kifayət qədər faktik bədii-poetik nümunələr, həm də elmi-nəzəri baza yığılıb formalaşmışdır. Mövcud vəziyyət milli ədəbiyyatşünaslığımızda satirik poeziyanın yaranma xüsusiyyətləri, inkişaf mərhələləri və perspektivləri haqda əhatəli və sistemli elmi-tədqiqat işinin yazılması zərurətini qarşıya qoymuşdur. Mövzuya müraciət həm də bu ehtiyacın ödənilməsindən irəli gəlir.

**Mövzunun tədqiq tarixi** XIX əsrin sonlarından, xüsusən M.F.Axundzadənin ədəbi görüşlərindən başlasa da əslində bu sahədə elmi-nəzəri baxışlar bu və ya digər qaydada əsasən XX əsrin əvvəllərindən etibarən diqqət çəkməkdədir. Xüsusi ilə qeyd etmək lazımdır ki, keçən əsrin ortalarından başlayaraq həm ədəbiyyatşünaslıq, həm də dilçilik istiqamətində satiranın, satirik poeziyanın tədqiqi ilə bağlı araşdırmalar sistemli, ardıcıl xarakter almışdır. Ə.Mirəhmədovun "Azərbaycan "Molla Nəsrəddin"i[3],

---

[1] Aristotel. Poetika. Bakı: Şərq-Qərb, 2006, s. 23
[2] Yenə orada, s. 29
[3] Mirəhmədov Ə. Azərbaycan "Molla Nəsrəddin"i. Bakı: Yazıçı, 1980

K.Məmmədovun «XIX əsr Azərbaycan şeirində satira»[1], «Qasım bəy Zakir»[2], «XX əsr Azərbaycan gülüşü»[3], M.Məmmədovun «İdeal qardaşları»[4], «M.Ə.Sabir və Azərbaycan demokratik mətbuatı»[5], C.X.Hacıyevin "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri"[6], Y.Qarayevin «Azərbaycan ədəbiyyatı XIX və XX yüzilliklər»[7], «Realizm: sənət və həqiqət»[8], İ.Ağayevin «Ədəbiyyat, mətbuat və publisistika problemləri»[9], «Əliqulu Qəmküsar»[10], «Molla Nəsrəddin»in poetikası»[11], A.Hacıyevin «Azərbaycan realizmi»[12], T.Novruzovun «Sabir ədəbi məktəbi»[13], A.Səfiyevin «Komediya və həyat»[14], A.Aydının «Türk ədəbiyyatında satira»[15], "Türkiyə ədəbiyyatı tarixi"[16], T.Mütəllimovun "Əbdürrəhimbəy Haqverdiyevin poetikası"[17], B.Əhmədovun «Azərbaycan satirasının inkişaf problemləri»[18], F.Kərimovanın «Azərbaycan təmsili»[19], B.Babayevin «Azərbaycan realist nəsrində satira»[20] və digər əsərlərdə satiranın, xüsusən Azərbaycan poeziyasında satirik şeirin inkişaf xüsusiyyətləri, poetikası barədə maraqlı elmi mülahizələr söylənilmişdir.

Ümumiyyətlə, satirik poeziyanın öyrənilməsi istiqamətində Əli Nazim, Məmməd Kazım Ələkbərli, Həmid Araslı, Mikayıl Rəfili, Heydər Hüseynov, Feyzulla Qasımzadə, Mir Cəlal, Cəfər Xəndan, Məmməd Arif, Kamran Məmmədov, Əziz Mirəhmədov, Məmməd Cəfər, Nazim Axundov, Mehdi Hüseyn, Mirzə İbrahimov, Sadıq Hüseynov, Abbas Zamanov,

---

[1] Məmmədov K. Azərbaycan şeirində satira. Bakı: Elm, 1975
[2] Məmmədov K. Qasımbəy Zakir. Bakı: Elm, 1957
[3] Məmmədov K. XX əsr Azərbaycan gülüşü. Bakı: Yazıçı, 1989
[4] Məmmədov M. İdeal qardaşları. Bakı: Azərnəşr, 1967
[5] Məmmədov M. M.Ə.Sabir və Azərbaycan demokratik mətbuatı. Bakı: Elm, 1974
[6] Hacıyev C.X. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1962
[7] Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzilliklər. Bakı: Elm, 2002
[8] Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980
[9] Ağayev İ. Ədəbiyyat, mətbuat və publisistika problemləri. Bakı: Elm, 2008
[10] Ağayev İ. Əliqulu Qəmküsar. Bakı: Elm, 1976
[11] Ağayev İ. «Molla Nəsrəddin»in poetikası. Bakı: Elm, 1988
[12] Гаджиев А. Азербайджанской реализм, Баку: Язычы, 1984
[13] Novruzov T. Sabir ədəbi məktəbi. Bakı: Yazıçı, 1992
[14] Səfiyev A. Komediya və həyat. Bakı: Yazıçı, 1983
[15] Aydın A. Türk ədəbiyyatında satira. Bakı: Elm, 1991
[16] Aydın A. Türkiyə ədəbiyyatı tarixi. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007
[17] Mütəllimov T. Əbdürrəhimbəy Haqverdiyevin poetikası, Bakı: Yazıçı, 1988
[18] Əhmədov B.Azərbaycan satirasının inkişaf problemləri. Bakı: Elm, 2000
[19] Kərimova F. Azərbaycan təmsili, Gəncə: Təhsil, 2003
[20] Babayev B. Azərbaycan realist nəsrində satira. Bakı: Elm, 2008

Qulam Məmmədli, Kamal Talıbzadə, Məmməd Məmmədov, Firidun Hüseynov, Yaşar Qarayev, Bəkir Nəbiyev, Qulu Xəlilov, Arif Hacıyev, Xalid Əlimirzəyev, Xeyrulla Məmmədov, Mustafa Mustafayev, Kamil Mirbağırov, Ceyran Əbdurrəhmanova, Abbas Hacıyev, Təhsin Mütəllimov, Tərlan Novruzov, Məsud Əlioğlu, İsa Həbibbəyli, Nərgiz Paşayeva, Nizami Cəfərov, Zaman Əsgərli, İslam Ağayev, Arif Səfiyev, Şamil Salmanov, Yavuz Axundlu, Fərman Xəlilov, Alxan Bayramoğlu, Bədirxan Əhmədov, Nizaməddin Şəmsizadə, Şirindil Alışanlı, Aybəniz Rəhimova, Tehran Əlişanoğlu, Asif Rüstəmli və başqaları böyük əmək sərf etmiş və dəyərli elmi-tədqiqat əsərləri çap etdirmişlər.Dilçi alimlərdən Ə.Dəmirçizadə, Ə.Cavadov, A.Axundov, Y.Seyidov, T.Hacıyev, Q.Kazımov, R.Məhərrəmova, K.Vəliyev, X.Cabbarov və başqaları da satirik şerin dil və üslub cəhətlərini konkret nümunələr əsasında göstərməyə çalışmışlar. Bu cəhətdən Tofiq Hacıyevin «Sabir: qaynaqlar və sələflər»[1], «Satira dili»[2], «Yazıçı dili və ideya-bədii təhlil»[3], Rəhilə Məhərrəmovanın «Sabirin söz dünyası»[4], Qəzənfər Kazımovun «Bədii ədəbiyyatda komizm üsulları»[5], «Komik-bədii vasitələr[6] monoqrafiyaları daha çox diqqəti cəlb etməkdədir.

**Dissertasiya işinin predmeti** Azərbaycan satirik poeziyası nümayəndələrinin poetik irsləridir. Bununla əlaqədar ilkin qaynaqlardan başlayaraq müasir dövrümüzə qədərki mərhələ içində satirik şeir nümunələri araşdırma predmeti olaraq götürülmüş, XIX və XX əsr Azərbaycan ədəbiyyatında satirik poeziyanın mövzu, ideya, janr əhatəsi, sənətkarlıq axtarışları əsas tədqiqat obyekti olaraq diqqət mərkəzində saxlanılmışdır. Bura daha çox XIX və XX əsr ədəbiyyatında tənqidi-satirik poeziyanın görkəmli nümayəndələrindən Baba bəy Şakir, Qasım bəy Zakir, Mirzə Baxış Nadim, Seyid Əzim Şirvani, Məhəmmədbağır Xalxali, Mirzə Mehdi Şükuhi, Mirzə İsmayıl Qasir, Abbas ağa Nazir, Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar, Əli Razi Şamçızadə, Əlabbas Müznib, Bayraməli Abbaszadə, Səməd Mənsur, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Mirzə Əli Möcüz, Əliağa Vahid, Rüfət Əhmədzadə, Hikmət Ziya, Balasadıq, Mərkəz Quliyev, İskəndər Etibar, Baba Pünhan və başqa şairlərin satirik şeir yaradıcılığı daxildir.

---

[1] Hacıyev T. Sabir: qaynaqlar və sələflər. Bakı: Yazıçı, 1980
[2] Hacıyev T. Satira dili, Bakı: ADU nəşri, 1975
[3] Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979
[4] Məhərrəmova R. Sabirin söz dünyası. Bakı: Nurlan, 2006
[5] Kazımov Q.Ş. Bədii ədəbiyyatda komizm üsulları. Bakı: Maarif, 1987
[6] Kazımov Q.Ş. Komik-bədii vasitələr. Bakı: Yazıçı, 1983

Bundan başqa şifahi xalq ədəbiyyatı örnəklərində, qədim və orta əsrlərdə yaşayıb- yaradan klassik sənətkarlarımızın – Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və başqalarının yaradıcılığında rast gəlinən tənqidi-satirik məqamlara da diqqət yetirilmiş, Azərbaycan və dünya filoloji elmi fikrində mövzu ilə bağlı olan elmi-nəzəri ədəbiyyatlardan bəhrələnilmişdir. Çünki satira və yumor yaradıcılığı, bu səpkidə yaranan əsərlər təkcə Azərbaycan ədəbiyyatında deyil, ümumən dünya ədəbiyyatında diqqət mərkəzində olmuş, aparıcı mövzulardan birinə çevrilmişdir. Odur ki, rus və Avropa alimlərinin, elm və ədəbiyyat adamlarının satira, satirik şeir yaradıcılığı barədə fikir və mülahizələri də öyrənilmiş, yekun elmi qənaətlər dissertasiyaya daxil edilmişdir. Problemin araşdırılması zamanı Aristotelin, V.Belinskinin, N.Çernışevskinin, A.Lunaçarskinin, V.Vinoqradovun, M.Baxtinin, J.Borevin, U.Eventovun, L.Yerşovun, U.Quralnikin, A.Yefimovun, S.Petrovun, V.Rubenin, D.Nikolayevin, J.Elcberqin, A.Lukun, V.Frolovun, A.Mixilevin və başqalarının elmi-nəzəri konsepsiyaları nəzərdən keçirilmiş, elmi mənbə kimi əsərlərindən faydalanmağa çalışılmış, yekun elmi qənaətlər çıxarılmışdır.

**Dissertasiyanın nəzəri-metodoloji əsaslarını** satirik poeziya, üslub və təmayüllər haqqında indiyədək əldə edilən elmi-nəzəri qənaətlər və tarixi-müqayisəli metod təşkil edir. Məhz bu səbəbdəndir ki, qarşıya qoyduğumuz problemin həllinə kompleks şəkildə, dünya ədəbiyyatı kontekstində yanaşılmış, mövcud materiallar elmi-nəzəri səpkidə tədqiq və təhlil edilmişdir. Aparılan təhlil və ümumiləşdirmələrdə, söz yox ki, milli ədəbi və elmi-nəzəri materialların diqqət mərkəzində saxlanılmasına üstünlük verilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri** Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkül və inkişaf tarixini mərhələli şəkildə izləmək, hər mərhələni səciyyələndirən xüsusiyyətləri analitik təhlil yolu ilə aşkara çıxarmaq, bununla da milli ədəbiyyatımızda satirik poeziyanın özünəməxsus cəhətlərini, yerini müəyyənləşdirməkdir. Bu məqsədə nail olmaq üçün aşağıda qeyd olunan vəzifələrin icrası nəzərdə tutulmuşdur:

– Satirik gülüşə müraciətin ədəbi-tarixi zərurətini aydınlaşdırmaq, problemin qoyuluşu və həlli yollarını göstərmək, bədii gülüşün mahiyyəti, təsnifi, növ, janr, üslub xüsusiyyətlərini Azərbaycan və dünya ədəbi-elmi-nəzəri fikri ilə müqayisədə araşdırmaq;

– Satiranın ədəbi hadisə olaraq yerini müəyyənləşdirmək;

– Folklor qaynaqlarında və klassik ədəbiyyatımızda satiranın təzahür

hallarını, işlənilməsi arealını müəyyənləşdirmək;

– Həcv və təmsil yaradıcılığının, tənqidi şeirin satiranın formalaşmasında rolunu araşdırmaq;

– XIX əsr Azərbaycan ədəbiyyatında satirik gülüşün sistemli ədəbiyyat hadisəsi olduğunu nəzərə çatdırmaq, satirik poeziya ilə ictimai-mədəni mühitin bağlarını göstərmək;

– Satirik poeziyanın inkişaf mərhələlərini müəyyənləşdirmək, maarifçi-realist, maarifçi-satirik poeziyanın xarakterik cəhətlərini göstərmək;

– M.Ə.Sabirin Azərbaycan ədəbiyyatında satirik poeziyada yeni mərhələ açdığını, özünəməxsus sənət ucalığına yüksəlməsini, özündən sonra ədəbi məktəb yaratmasını göstərmək;

– Sabir şeiri ənənələrinin miqyasını, təsir dairəsini, xarakterik cəhətlərini göstərməyə çalışmaq;

– Sovet dövründə – bədii ədəbiyyatda siyasi basqı mühitində satirik şeirin ideya-poetik xüsusiyyətlərini göstərməklə yanaşı, dövrün ədəbi mühitində satirik poeziyanın yerini müəyyənləşdirmək;

– Müstəqillik dövründə satirik poeziyanın hədəflərini göstərmək;

– Satira sənətkarlığının bədii-üslubi özünəməxsusluğunu aydınlaşdırmaq;

– Satira yaradıcılığının bütövlükdə Azərbaycan ədəbiyyatının, Azərbaycan poeziyasının inkişafında müstəsna rolunu göstərməyə çalışmaq;

**Tədqiqatın elmi yenilikləri** Azərbaycan ədəbiyyatında satirik poeziyanın sistemli, mərhələli şəkildə tədqiqi, marksist-leninçi metodologiyadan fərqli olaraq problemin milli müstəqilliyin imkan verdiyi yeni metodoloji istiqamətlər baxımından araşdırılması ilə səciyyələnir.

Elmi həqiqət naminə deyilməlidir ki, görülmüş faydalı işlərə baxmayaraq, satirik poeziyanın formalaşması, inkişaf mərhələləri və hər mərhələnin özünəməxsus səciyyəvi xüsusiyyətləri indiyədək ayrıca elmi araşdırma mövzusu olmamışdır. Satirik poeziya ilə bağlı çoxsaylı tədqiqatlar əsasən XIX-XX əsrlər ədəbiyyatını əhatə edir. Tədqiqat işimizdə isə ilk dəfə olaraq çoxəsrlik tarixə malik Azərbaycan poeziyasında satirik şeirin mövqeyi, daşıdığı ideya-estetik funksiya ayrıca tədqiqat predmeti olaraq götürülmüş, satirik şeir ənənələrindəki tipoloji xüsusiyyətlər, ədəbi mərhələ keyfiyyətləri ədəbi-tarixi, ədəbi-müqayisəli yanaşmalar şəklində, müasir ədəbiyyatşünaslıq mövqeyindən diqqət mərkəzinə gətirilmişdir. Satirik poeziyanı ədəbiyyatımızın başqa növ və janrlarından təcrid olunmuş şəkildə deyil, ədəbi vəhdətdə, vahid ədəbi-tarixi prosesin tərkib hissəsi olaraq götürməyə, təhlillər aparmağa cəhd edilmişdir.

Tədqiqatda ilk dəfə olaraq Azərbaycan ədəbiyyatında tənqid və satiranın yaranmasının sosial-tarixi səbəbləri və ideya-estetik xüsusiyyətləri, inkişaf mərhələləri kompleks şəkildə araşdırılmışdır. Həm şifahi, həm də yazılı ədəbiyyatda ictimai ədalətsizliklərə etiraz motivlərinin üzə çıxma səbəbləri və üsulları folklor materialları, eləcə də qədim və orta əsr şairlərinin yaradıcılıq nümunələri əsasında izlənilmiş, nəzəri təhlillər və elmi ümumiləşdirmələr aparılmışdır. Satiranın etiraz, fərdi tənqid, həcv nümunələrindən poetik sənət örnəklərinədək keçdiyi mərhələlərin hər birinə aydınlıq gətirilmişdir.

Dissertasiyada XIX əsrdə, eləcə də XX əsrin əvvəllərində milli ədəbiyyatımızda satirik poeziyanın əlverişli inkişaf zəmini tapmasının tarixi-ictimai və milli-mədəni səbəblərinə kompleks şəkildə nəzər salınmış, bu barədə nəzəri ədəbiyyatda irəli sürülən bir çox elmi tezislərə aydınlıq gətirilmiş, bir qismi ilə polemika aparılmışdır. Həmin «iki min ili tamamlayan iki yüz ildə»[1] satirik poeziyanın Q.Zakir, S.Ə.Şirvani, M.İ.Qasir, A.Nazir, M.Ə.Sabir, Ə.Nəzmi və b. nümayəndələrinin yaradıcılıq uğurlarına milli ədəbiyyatşünaslığımızın nailiyyətləri əsasında nəzər salınmışdır.

Tədqiqat işində keçmiş sovet dönəmində satirik poeziyanın inkişafında qarşıya çıxan əngəllərin tarixi-siyasi səbəbləri və xüsusiyyətləri aydınlaşdırılmış, həm sovet dönəmində, həm də müstəqillik illərində milli satirik poeziya ənənələrinin inkişaf xüsusiyyətləri ayrı-ayrı şairlərin yaradıcılığında nəzərdən keçirilmiş, satirik poeziyanın ideya-sənətkarlıq xüsusiyyətləri araşdırılaraq konkret elmi qənaətlər çıxarılmışdır.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın başlıca nəzəri əhəmiyyəti tədqiqat işində Azərbaycan ədəbiyyatında satirik poeziyanın yaranmasının sosial-tarixi səbəbləri, ideya-estetik xüsusiyyətləri və inkişaf mərhələlərinin səciyyələndirilməsindən ibarətdir. Bu baxımdan bədii ədəbiyyatın ədəbi mərhələ keyfiyyətləri, özünüifadə imkanları, hər poetik mərhələnin bədii-estetik fikrə təsirinin öyrənilməsi çağdaş ədəbiyyatşünaslıq elmimizin ən aktual vəzifələrindəndir. Mövzunun araşdırılmasında istifadə olunan tədqiqat üsulları, satirik poeaiyada mövzu və sənətkarlıq axtarışları ilə bağlı toplanmış elmi təcrübə bu sahədə gələcək tədqiqatlar üçün geniş imkanlar yaradır. Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrində əlavə vəsait kimi də istifadə etmək olar.

**İşin aprobasiyası.** Tədqiqat işi AMEA-nın Nizami adına Ədəbiyyat

[1] Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzilliklər (iki min ili tamamlayan iki yüz il – XIX və XX yüzilliklər). Bakı: Elm, 2002

İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsində hazırlanmışdır.

Dissertasiyanın mövzusu 27 oktyabr 2004-cü il (protokol №6) və Azərbaycan MEA «Müasir dövrdə dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları» problemi üzrə Respublika Əlaqələndirmə Şurasının 10 noyabr 2004-cü il tarixli (protokol №9) qərarları ilə təsdiq olunmuşdur.

Araşdırmanın məzmunu ilə əlaqədar müəllifin 30-dan artıq elmi məqaləsi respublikamızda, eləcə də xarici ölkələrin müxtəlif elmi məcmuə və jurnallarında çap olunmuş, respublika və beynəlxalq elmi konfranslarda mövzu ilə əlaqədar məruzə və çıxışlar edilmiş, «Azərbaycan poeziyasında satira (təşəkkül dövrü və inkişaf mərhələləri)» (Bakı: Elm və Təhsil, 2010) və “Müasir Azərbaycan poeziyasında Sabir satira ənənələri”(Bakı: Elm, 2012) adlı monoqrafiyaları nəşr olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində tədqiqatın ümumi səciyyəsi ifadə olunmuş, mövzunun elmi aktuallığı əsaslandırılmış, tədqiqatın predmeti, tədqiq tarixi,elmi-nəzəri əsasları, məqsəd və vəzifələri, metodu, nəzəri və praktik əhəmiyyəti,işin aprobasiyası və strukturu barədə məlumat verilmişdir.

Birinci fəsil **«Azərbaycan ədəbiyyatında satirik poeziyanın formalaşması və tədqiq tarixi»** adlanır. Fəslin **«Satirik yaradıcılıq üsulunun folklor qaynaqları»** adlı birinci bölməsində satirik poeziyanın yaranmasında xalq ədəbiyyatının rolundan danışılır, konkret nümunələr əsasında məsələyə aydınlıq gətirilir. Folklorun bir çox janrlarında bədii gülüş aydın şəkildə özünü göstərir. Satirik gülüş o zaman yaranır ki, əyri düzün yerindədir, ona yuxarıdan aşağı baxır. Xalq bu yerdə bayatı üstündə köklənərək atalar sözlərindən yarasına məlhəm istəyir:

Ay zamana, zamana,
Oxu qoydun kamana.
Eşşəklər arpa yeyir,
At həsrətdir samana.[1]

Məhz bu səbəbdən akademik M.İbrahimov haqlı olaraq xalq ədəbiyyatında satirik gülüşün yaranmasını şərtləndirən əsas səbəb olaraq cəmiyyət

[1] Atalar sözü (Toplayanı Ə.Hüseynzadə). Bakı: Yazıçı, 1985, s. 44

həyatında baş verən özbaşınalıqlara xalqın özünəməxsus cavab reaksiyası olduğunu bildirmişdir.[1]

Satirik poeziyanın görkəmli tədqiqatçılarından olan prof. K.Məmmədov da satirik poeziyanın təməlində xalq ədəbiyyatının durduğunu, cəmiyyət hadisələrinin poeziyada bədii gülüş nümunələrin yaranmasından ötrü zəngin material verdiyini qeyd etmişdir.[2]

Əgər XIX əsrin satirik şeir xəzinəsinə diqqət yetirsək, əvvəlki əsrlərlə müqayisədə ciddi şəkildə fərqli nəticələrin olduğunu görərik. Belə ki, XX əsrdə Sabir qırmancını sağa-sola şiddətlə vururdusa, satira yolu açıq və geniş idisə, həmin yolu, cığırı XIX əsr klassiklərinin açdığını demək düzgün olardı. Məhz bu dövrdə – XIX əsrdə yazılı ədəbiyyatımızda xalq şeirinin satira ənənələrindən də daha geniş şəkildə istifadə olunmuşdur.

Həqiqəti üstüörtülü şəkildə deyərək hadisə və əhvalatları uzaq əyyamlarla bağlamaqla folklordan bəhrələnmək meyli XIX əsr satirik şeir yaradıcılarının daha çox müraciət etdiyi bədii üsullardan sayılmalıdır. Q.Zakirin, A.Bakıxanovun, M.Ş.Vazehin, S.Ə.Şirvaninin və dövrün digər şairlərinin satirik şeir yaradıcılığında atalar sözlərindən, əfsanə və rəvayətlərdən, nağıllardan, lətifələrdən geniş istifadə olunması buna əyani misaldır. Bu proses sonrakı zamanlarda da davamlı şəkildə yazılı ədəbiyyat nümunələrində özünə yer almışdır.

Fəslin **“Satirik poeziyanın nəzəri dərki məsələləri”** adlı ikinci bölməsində satirik poeziyanın tədqiqi və elmi-nəzəri ədəbiyyatda şərhi üsulları araşdırılmışdır.

Elmi-nəzəri fikirdə tənqid və ictimai satiranın formalaşma mərhələləri haqqında danışarkən diqqətimizi ilk öncə M.F.Axundzadə cəlb etməkdədir. Məhz M.F.Axundzadə tənqidi gülüşə ədəbi ehtiyacı vaxtında görmüş, özünün yaradıcı fəaliyyətində sosial-mənəvi həyatın bu ədəbi tələbini layiqincə yerinə yetirmiş, müasirlərini də həmin ədəbi reallıqlara inandırmağa çalışmışdır. Belə ki, Mirzə Məhəmməd Cəfərə məktubunda «Kəmalüddövlə məktubları»nın bədii məziyyətləri barədə məlumat verərkən onun tənqidi əsər olaraq, nəsihət və moizə ədəbiyyatından üstünlüyü barədə demişdir: «Bu üstünlüyün səbəbi odur ki, tənqidi əsər istehza, gülgü və məsxərə yolu ilə yazılır»[3].

Göründüyü kimi, ədib burada tənqidi məzmun, ictimai xarakter daşıyan

---

[1] İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı: Azərnəşr, 1961, s. 524

[2] Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira. Bakı: Elm, 1975

[3] Axundov M.F. Əsərləri: 3 cilddə, III c., Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1962, s. 247

bədii ədəbiyyatın mayasında satirik gülüşün, incə yumor və məsxərənin olduğunu duymuş və onu aydın şəkildə ifadə etmişdir. Satiranın, bədii gülüşün insan həyatında rolunu, əhəmiyyətini dönə-dönə vurğulayan M.F.Axundzadə satiranın tərbiyəvi mahiyyətini xüsusilə önə çəkərək demişdir: «Xalqı tərbiyələndirmək, həmməzhəblərimizin əxlaqını saflaşdırıb islah etmək, dövləti nizam-intizama salıb, onun əmrlərinin və qadağan etdiyi işlər haqqındakı hökmlərinin təsirini artırmaq üçün tənqiddən faydalı heç bir vasitə ola bilməz»[1].

Lakin etiraf olunmalıdır ki, elmi-ədəbi həqiqət bundan ibarətdir ki, satirik poeziyamızın bir çox nümayəndələri ilə bağlı ilk geniş məlumatlar, heç şübhəsiz, F.Köçərlinin adı ilə bağlıdır. O, XIX əsr Azərbaycan satirasının B.Şakir, Q.Zakir, M.B.Nadim, S.Ə.Şirvani, M.B.Xalxali kimi sənətkarlarının həyat və yaradıcılığı haqqında elmi cəhətdən əsaslandırılan dolğun məlumatlar vermiş, müəyyən təhlillər aparmışdır. Lakin keçən əsrin əvvəllərində yeni yaranan milli ədəbiyyatşünaslıq məktəbi tam formalaşmadığından F.Köçərli ədiblərimizin fəaliyyətlərində, onların ədəbi irsində müşahidə edilən satirik şeir yaradıcılığından ayrıca, əhatəli şəkildə bəhs etməmiş, daha çox realizm məsələlərinə diqqət ayırmışdır.

Görkəmli ədəbiyyat bilicisi S.Mumtaz da bu istiqamətdə ardıcıl fəaliyyət göstərmişdir. O, keçən əsrin 20-30-cu illərində klassik ədəbiyyatımızın bir çox nümayəndələri barədə silsilə məqalələr yazmış, nəşr etdirdiyi «Qasım bəy Zakir», «Baba bəy Şakir» və digər kitablara maraqlı müqəddimələr yazmışdır. Ancaq bir məsələni qeyd edək ki, istər F.Köçərlinin, istərsə də S.Mümtazın milli satirik poeziyamız haqqındakı tədqiqləri fakt-material toplamaq baxımından son dərəcə qiymətli olsa da, elmi-nəzəri təhlillərə lazımi qədər diqqət yetirilməmişdir.

Yazıçı və tənqidçi Y.V.Çəmənzəminli də özünün bir sıra məqalələrində, xüsusən 1919-cu ildə nəşr etdirdiyi «Azərbaycan ədəbiyyatına bir nəzər» əsərində milli ədəbiyyatımızın nəzəri məsələlərinə, eləcə də satirik poeziya və tənqidi əsər anlayışlarına münasibət bildirmişdir. O, Zakirlə M.F.Axundzadənin tənqidi əsərlərinə yüksək qiymət verərək demişdir: «Şair Zakir Axundov ilə bərabər tənqid dövrünün nəsr və nəzmdə baniləri sayılırlar. Bu dövr gələcək üçün yollar təmizləmiş, milli inkişaf üçün böyük sahələr hazırlamışdır»[2]. Məhz buna görədir ki, Y.V.Çəmənzəminlinin M.Ə.Sabir satirasının da yüksək zirvələr fəth etməsində həlledici məqam-

---

[1] Axundov M.F. Əsərləri: 3 cilddə, III c., Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1962, s. 246

[2] Çəmənzəminli Y.V. Əsərləri: 3 cilddə, III c., Bakı: Avrasiya Press, 2005, s. 133

lardan biri olaraq klassik ədəbiyyatın, daha dəqiq desək, Q.Zakirin rolunun əsaslı olduğunu konkret şəkildə əsaslandırmışdır.

Elmi-nəzəri fikirlərində daha çox XX əsrin 20-30-cu illər mövcud marksist konsepsiyasından bəhrələndikləri açıq-aydın sezilən M.Rəfili, Ə.Nazim, H.Zeynallı, M.K.Ələkbərli, M.Hüseyn, F.Qasımzadə, Ə.Sultanlı, M.İbrahimov kimi ədəbi tənqidçilər klassik ədəbi irslə bağlı əsərlərində satirik poeziyanın ədəbi cərəyan səviyyəsində təşəkkülünə də toxunmuş, bu barədə qiymətli fikirlər söyləmişlər. Bu illərdə aparılan elmi araşdırmalarda XIX əsr satirik poeziyasının Azərbaycan realizminin təşəkkülündə, formalaşmasında xidmətləri xüsusi qeyd edilmiş, satirik poeziya ənənələrinin müxtəlif ədəbi mərhələlərdə qazandığı spesifik xüsusiyyətlər, tipoloji keyfiyyətlər sistemli şəkildə göstərilmişdir.

Bir məsələ üzərində də xüsusi olaraq dayanmaq istərdik ki, sovet dövrü monoqrafiya və dərsliklərində, satira haqqında dərc olunan çoxsaylı elmi məqalələrdə bir-birindən fərqli fikirlərə də rast gəlmək mümkündür. Belə ki, bir çox elmi əsərlərdə bədii gülüşdən, satiradan məcaz, kinayə, yaxud təriz adı altında danışılmışdır. Ədəbiyyatşünas M.Rəfili isə «satira və yumor janrı» ifadəsini işlətsə də, barəsində ayrıca danışmağı lazım bilməmiş, onu "kinayə" bölməsinə daxil edərək demişdir: «Kinayə adətən, komik vasitələrdəndir və buna ən çox komediya, satira, yumor janrında rast gəlirik»[1].

Arada müəyyən fasilə yaransa da keçən əsrin sonrakı dönəmlərində, xüsusən 50-60-cı illər mövzuya zəruri qayıdış dövrü kimi diqqəti cəlb edir.

XX əsrin 70-80-ci illərindən başlayaraq Azərbaycan ədəbiyyatşünaslığı özünün yeni mərhələsinə – monoqrafik tədqiqatlar dövrünə qədəm qoymuşdur. Həmin illərdə Ə.Mirəhmədov, Y.Qarayev, A.Hacıyev kimi geniş nəzəri imkanlara malik olan alimlərimiz Azərbaycan realizmində satirik şeir ənənələri, bu məsələdə sələf-xələf münasibətləri, milli realizmin təsnifatı problemləri ətrafında maraqlı tədqiqat əsərləri yazdılar. Bu cəhətdən A.Zamanovun "Sabir və müasirləri"[2], Ə.Mirəhmədovun «Azərbaycan ədəbiyyatına dair tədqiqlər»[3], K.Məmmədovun «XIX əsr Azərbaycan şerində satira»[4], M.Məmmədovun «M.Ə.Sabir və Azərbaycan demokratik

[1] Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: APİ, 1958, s. 168
[2] A.Zamanov A.Sabir və müasirləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973
[3] Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər (XIX-XX əsrlər), Bakı: Maarif, 1983
[4] Məmmədov K. Azərbaycan şeirində satira. Bakı: Elm, 1975

mətbuatı»[1], A.Hacıyevin «Azərbaycan realizmi»[2], Y.Qarayevin «Realizm: sənət və həqiqət»[3] kitabları problemə orijinal baxışları ilə elmi ictimaiyyətin diqqətini daha çox cəlb etmişdir.

Y.Qarayevin "Realizm: sənət və həqiqət"əsəri kecən əsrin 80-90-cı illər Azərbaycan ədəbi-nəzəri fikrinin sanballı tədqiqatlarındandır. Alim həmin əsərdə satirik poeziyanın inkişaf xususiyyətlərini realizmin tipoloji cəhətləri ilə ələqaləndirmiş, qarşılıqlı varıs-irs, sələf-xələf münasibətləri fonunda satirik poeziyanın inkişaf mərhələlərinə aydınlıq gətirməyə çalışmışdır. Onun "Tarix: yaxından, uzaqdan"monoqrafiyası və burada "Yaddaş özünü satirada dərk edir" fəslində qoyulan məsələlərin nəzəri həlli də müasirliyi, elmi yeniliyi ilə diqqəti cəlb edir. Alim qeyd olunan monoqrafiyada ədəbiyyat tarixini siyasiləşdirməyin əleyhinə oldugunu qeyd etmişdir: "Ədəbiyyat tarixini yenidən yazmağı – onu hər yeni dövrün ideologiyası ilə və hər dəfə yenidən təftiş etmək kimi başa düşmək olmaz"[4].

X.Əlimirzəyev «Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları» əsərində satira və yumor haqqında danışarkən ibrətamiz misallar əsasında fikrini izah edərək satira və yumorun estetik ideala xidmət etdiyini göstərərək demişdir: «Bədii gülüş satira və yumor kimi növlərə bölünür. Bunlar tənqidin xarakterinə və mahiyyətinə görə bir-birindən ayrılsalar da, hər ikisi insanların intibahına, mənəvi təkamülünə xidmət edən vahid estetik mərama xidmət edir»[5].

Ədəbiyyatşünas alim A.Səfiyev bir sıra elmi araşdırmalarında, xüsusən «Komediya və həyat» monoqrafiyasında komikliyin dərketmə vasitəsi olduğu barədə danışaraq «Komiklik bir estetik kateqoriya olaraq ziddiyyətləri dərketmə vasitəsidir»[6] – demişdir.

B.Əhmədov «Azərbaycan satirasının inkişaf problemləri» adlı monoqrafiyasında satiranın nəzəri-estetik problemləri və elmi ədəbiyyatda tədqiqi məsələlərini geniş şərh edib satira haqqında deyilənləri ümumiləşdirərək aşağıdakı nəticəyə gəlmişdir: «Həqiqətdə isə bir janr (təmsil, epiqramma, lətifə, pamflet və s.) olaraq yaranan satira getdikcə bu müəyyənlikdən çıxaraq, əsərin ideya məzmununa, strukturuna hopur. Satiranın

---

[1] Məmmədov M. M.Ə.Sabir və Azərbaycan demokratik mətbuatı. Bakı: Elm, 1974
[2] Гаджиев А. Азербайджанской реализм, Баку: Язычы, 1984
[3] Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980
[4] Qarayev Y. Tarix: Yaxından və uzaqdan, Bakı: Sabah, 1996, s. 126
[5] Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: Nurlan, 2008, s. 375
[6] Səfiyev A. Komediya və həyat. Bakı: Yazıçı, 1983, s. 6

«yalançı ədəbi növ» kimi qəbul olunduğu vaxtlar da olmuşdur. Satira həm də pafosdur. Bu pafos hər hansı bir əsərin süjet, kompozisiya və məzmununu təşkil edirsə, hökmən onun janrını da müəyyənləşdirimş olur. Satira həm də müəllifin dünyagörüşünün təzahür forması, həyatı dərketmə üsul və vasitələrindən biri kimi də öz təsdiqini tapır. Satira bütün zamanların formasıdır»[1].

Müasir Azərbaycan ədəbi-nəzəri fikrində satira və satirik poeziya məsələləri ilə ardıcıl şəkildə məşğul olan alimlərdən biri də İ.Həbibbəylidir. Alimin C.Məmmədquluzadənin ədəbi irsinə, yaradıcılıq xususiyyətlərinə həsr etdiyi "C.Məmmədquluzadə: Mühiti və muasirləri" monoqrafiyasında həm Mirzə Cəlil, həm də yeni tipli satiranın banisi M.Ə.Sabirin yaradıcılıgına mühüm yer ayrılmış, mühüm elmi qənaətlər çıxarılmışdır.[2]

Satira haqqında dilçi alimlərimiz də maraqlı fikirlər söyləmiş, problemin araşdırılması ilə zaman-zaman məşğul olmuşlar. Dilçi alim, prof. T.Hacıyev satiranı ədəbi-bədii forma olaraq aşağıdakı şəkildə təqdim edir: «…Ancaq, şübhəsiz, satirik nitq üçün əsas tikinti materialı adi danışığın söz və vəzifələridir ki, bunu XIX əsrdə Vaqif ənənələri əsasında Q.Zakir gerçəkləşdirir. Azərbaycan dilli satiranın Nəsimi, Füzuli və Vaqifdə güclü nümunələrinə təsadüf olunsa da, bu ancaq XIX əsrdən professional inkişaf yoluna düşür. Satira məzmunca ixtisaslaşdığı kimi, forma cəhətdən də, dil materialına görə də müəyyənləşir və beləliklə o, ədəbi-bədii forma kimi müstəqilləşir»[3].

Q.Kazımov həyat gerçəkliklərinin bədii inikası məsələlərindən danaşarkən bildirmişdir: «Doğrudur, komizm mənfi hadisələrin, həyatdakı eybəcərliklərin bədii ədəbiyyatda sənət dili ilə ifadəsidir. Lakin bütün mənfilik və eybəcərliklər gülüş doğurmur. Yalnız o mənfiliklər komizm doğurur ki, onun bədii ədəbiyyatda ifadəsi oxucuda gülüş emosiyaları yaradır. Yazıçı gülməlini, gülüncü həyatdan mənimsəyir, ətraf mühitdən seçib götürür və onu yüksək sənət səviyyəsinə qaldıraraq oxucunu, tamaşaçını güldürür. Beləliklə, komik sənət gülüşdən (gülüncdən) başlayır və gülüşlə bitir; obyektiv aləmdə mövcud olan, komizm mənbəyi kimi təzahür tapan canlı ziddiyyətlər müxtəlif vasitə və üsullarla aşkara çıxarılır»[4].

Belə xarakterik misalların sayını artırmaq da mümkündür. Göründüyü kimi, istər ədəbiyyatşünas, istərsə də dilçi alimlərimiz mahiyyəti əsasən

---

[1] Əhmədov B.Azərbaycan satirasının inkişaf problemləri. Bakı: Elm, 2000, s. 32
[2] Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri. Naxçıvan: Əcəmi, 2009, 424 s.
[3] Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979, s. 88
[4] Kazımov Q.Ş. Bədii ədəbiyyatda komizm üsulları. Bakı: Maarif, 1987, s. 8

düzgün açıqlasalar da, satiranın təsnifi, növ və janr xüsusiyyətləri, ədəbi-nəzəri sistemdə tutduğu yer barədə fərqli düşüncələrdədirlər.

Satira və satirik poeziya məsələləri Azərbaycan ədəbiyyatşünaslığında olduğu kimi, rus və dünya ədəbiyyatşünaslığının, elmi-nəzəri fikrinin də əsas araşdırma mövzularından biridir.

Satiranın nəzəri dərki və inkişaf xüsusiyyətləri barədə V.Belinskinin, N.Çernışevskinin, İ.Eventovun, L.Yerşovun, Y.Borevin, Y.Elsberqin, M.Baxtinin, A.Yefimovun, A.Lukun, S.Petrovun, A.Mixilevin, V.Rubenin və digər alimlərin fərqli elmi yanaşmaları da problemin şərhinə müəyyən aydınlıq gətirmişdir.

Beləliklə, satira haqqında elmi-nəzəri mülahizələri, yekun elmi qənaətləri ümumiləşdirməli olsaq, satiranın bədii ədəbiyyatda yeri, digər sənət növləri, janrları ilə müqayisədə mövqeyi barədə təxminən aşağıdakı fikirlərin söylənildiyini sadalamaq mümkündür:

– satira ədəbi növdür
– satira janrdır
– satira bədii ifadə vasitəsidir
– satira bədii üslubdur
– satira formadır
– satira bədii prinsipdir.

Heç şübhəsiz, ayrı-ayrılıqda bu deyilənlərin, satira adına söylənilən fikir və mülahizələrin hər birində elmi həqiqət yox deyildir. Qeyd edilən elmi qənaətlər mümkün elmi açıqlamalar nəticəsində ortaya qoyulmuşdur. Lakin elmi ədəbiyyatda bu və ya digər şəkildə söylənildiyi kimi, bu yanaşmaların bir çoxunda birtərəflilik, natamamlıq vardır. Fikrimizcə, satiranı növ, yaxud janr hesab etmək düzgün olmazdı. Hələ Aristoteldən gələn belə bir fikir bu gün də səslənir ki, ədəbi növlər tərənnüm, təsvir və hərəkət xüsusiyyətlərinə görə sabitləşmişlər. Satirik əsərləri məhz həmin xarakterik cəhətlərinə görə qeyd olunan lirik, epik, dramatik növlər sırasına daxil etmək mümkündür.

Əslində satira nədir? Məlumdur ki, çox zaman satira kimi qəbul etdiyimiz bəzi ədəbi nümunələr heç də həmişə bu bədii ədəbiyyat hadisəsinin bütün cəhətlərini özündə ehtiva edə bilmir. Çünki satirada daha çox Ezop dilindən istifadə olunur, dolayı tənqidə, eyhamlı, kinayəli sözə geniş meydan verilir.

Bir çox alimlər satiranın ədəbi növ olması anlayışı ilə razılaşmasalar da, istisna hal kimi bəzi janrları, məsələn felyeton, pamflet, lətifə, təmsil və digər bədii örnəkləri satirik janrlar kimi səciyyələndirirlər. Bu fikirlərdə də

gerçəkliyin, həqiqətin olduğunu danmaq çətindir. Lakin burada da fikirlər sonadək aydın deyildir. Fikrimizcə, satiranın «əsər» sözündən əvvəl gəlməsinə, «satirik» ifadəsinin təyinetmə funksiya daşımasına daha çox diqqət yetirmək gərəkdir. Belə ki, lirik əsər deyildikdə tərənnüm, epik əsərlər təsvir, təhkiyə anlamını ifadə edirsə, satirik şeir, satirik hekayə, satirik povest deyilərkən həmin ədəbi nümunənin xarakterik cəhəti, mahiyyəti yada salınır. Yuxarıda qeyd etdiyimiz kimi, funksional üslublar içərisində bədii üslubla yanaşı, bədii əsərlərin yaranmasında ictimai-publisistik üslub da müstəsna əhəmiyyətə malikdir. Daha bir incə məqama diqqət yetirmək lazımdır ki, bədii üslubun ən əsas cəhətləri, heç şübhəsiz, obrazlılıq, emosionallıq, ahəngdarlıq kimi aparıcı keyfiyyətlərdir. Satirik əsərlərdə isə pafos, başqa sözlə desək, ictimai-publisistik istiqamət daha güclüdür. Həmin əsərlərin yaranmasında bədii üslubun rolunu inkar etmədən deyə bilərik ki, istənilən satirik əsərdə bədii üslubdan daha çox ictimai-publisistik istiqamət özünü daha qabarıq şəkildə göstərir və belə poetik nümunələrdə ictimai məzmun daha əsasdır. Hesab edirik ki, bütün satirik əsərlər məhz ictimai-publisistik üslubda, satirik yaradıcılıq üsulunda qələmə alınaraq araya-ərsəyə gəlir. C.Məmmədquluzadənin «Poçt qutusu» yumoristik hekayədir, müəllifin «Danabaş kəndinin əhvalatları» satirik povestdir, Sabirin satiraları həm də lirika nümunələridir. Odur ki, ifadə etdiyi satirik məzmuna görə əsərləri satirik janrlar olaraq qəbul etmək olmaz. Əgər belə olarsa, təmsil satirik janr olduğu kimi, həm də epik növə daxildir, epik növün janrlarından sayılır.

Fikrimizcə, satira ictimai-publisistik üslub daxilində özünü müxtəlif ədəbi növlərdə göstərə bilər. Milli ədəbiyyatımızdan gətirə biləcəyimiz çoxsaylı nümunələr bu fikri bir daha təsdiqləyir. Beləliklə, yekun qənaətimiz budur ki, satira ictimai-publisistik üslubda bədii ədəbiyyatın bütün növlərində bu və ya digər dərəcədə öz əksini tapan bədii yaradıcılıq üsuludur.

Dissertasiyanın ikinci fəsli **«Poeziyada ictimai-əxlaqi və sosial motivlərin güclənməsi»** adlanır. Fəslin **«Tənqid və etiraz doğuran ictimai-tarixi ədalətsizliklərin klassik poeziyada bədii inikas üsulları»** adlı birinci bölməsində göstərilir ki, satirik poeziya birdən-birə meydana gəlməmişdir. Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkül tarixi haqqında çoxsaylı elmi mülahizələr vardır. Bu barədə danışarkən M.İbrahimov demişdir: «Komik və satirik əsərlər bizdə orta əsrlərdən başlayaraq həcv formasında inkişaf etmişdir. Həcv, əsasən, geniş ictimai məzmunlu, dərin tənqidi, öldürücü xüsusiyyətə malik olmuşdur. İndi ictimai məzmunlu

həcvi söyüş və şəxsi nifrətin ifadəsi kimi izah etmək halları olduqca yanlış və ədəbiyyat tariximiz üçün zərərlidir. Xeyr, həcvi ancaq bir adama qarşı şəxsi nifrət motivləri ilə izah etmək olmaz. Ümumiyyətlə, Şərq ədəbiyyatı, bilxassə Azərbaycan ədəbiyyatının tarixi inkişaf şəraiti və xüsusiyyətləri gülüşün, satiranın həcv şəklində meydana çıxmasına səbəb olmuşdur»[1].

Lakin A.Abıyevin «Türk ədəbiyyatında satira» monoqrafiyasında göstərildiyi kimi, hər cür həcvi satirik şeirin təməlində, inkişafında ilkin mərhələ olaraq qəbul etmək çətindir[2]. Qaba ifadələr, söyüş və təhqirlərlə dolu olan, sırf şəxsi maraqları ifadə edən, heç bir ümumiləşdirmə gücünə malik olmayan nümunələri böyük ədəbiyyata aid etmək düzgün olmazdı. Bununla belə əgər konkret həcvdə paxıllıq, bədxahlıq, nadanlıq, cəhalət, rüşvətxorluq, rəzalət, satqınlıq, ədalətsizlik kimi naqis əməllər pislənirsə, belə nümunələrin ictimai mahiyyətini danmaq olmaz.

Orta əsr şairlərinin yaradıcılığında daha çox ictimai təsir vasitəsi kimi diqqəti cəlb edən, mənfilikləri pisləyən, yeri gəldikcə lağa qoyan həcvə münasibət sonrakı dövrlərdə heç də birmənalı olmamışdır. Bir çox sənətkarların özü də həcvi az qala hədyan saymış, ondan yalnız düşmənlərini sancmaqdan ötrü istifadə etməyə çalışmışdır. Bu cəhətdən XIX əsrin görkəmli sənətkarı Q.Zakirin «Yol gedə bilməyəcək əhli-vilayət nədən» misrası ilə başlayan şeirindən aşağıdakı misraları göstərmək olar:

Həcvü hədyan ilə ovqat keçirdin, Zakir,
Qorx o gündən, olasan ta bəəbəd zərbi-məsəl[3].

Zakiri belə bir fikrə gəlməkdə konkret əsaslar, səbəblər vardı. Çünki şairin özü bir çox şerində qaba ifadələr işlədir, qarşı tərəfə həqiqətən də hədyanlar yağdırırdı. Şəxsi düşmənlərlə əhatə olunmuş şair təskinliyini bəlkə də həmin sözlərdə alırmış. Lakin bir cəhəti unutmaq olmaz ki, XX əsrin satiriklərində gördüyümüz satirik meyillər, sözün daha çox kinayəli və istehza ilə deyilməsi, özünüifşa üsulları, satirik monoloqlar və digər bədii üsullar əslində həcv yaradıcılığının məhsuludur. Şairin M.F.Axundzadəyə məktub şəklində ünvanladığı və digər şeir nümunələri satiradan daha çox həcv təsiri bağışlayır. Əslində həmin şeirlər həcvdən həqiqi satiraya keçidin aşkar nümunələridir. Əgər böyük sənətkar özündən əvvəlki ustadların həcv yaradıcılığından, tənqidi şeirlərindən bəhrələnməsəydi, heç şübhəsiz, bu qədər irəliləyə bilməzdi. Bu irəliləyiş isə təkcə Zakirin deyil, həm də Azərbaycan ədəbiyyatında satirik poezi-

---

[1] İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı: Azərnəşr, 1961, s. 15-16
[2] Abıyev A. Türk ədəbiyyatında satira. Bakı: Elm, 1991
[3] Qasım bəy Zakir. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, s. 49

yanın məzmun, sənətkarlıq, üslub cəhətlərindən irəliləyişi demək idi.

Satirik poeziyanın nüvəsində sağlam, işıqlı niyyətlər, ümumbəşəri fikirlər, sabaha, inkişafa, irəliləyişə çağırış amili dayanır. Məhz bu baxımdan Xaqani Şirvaninin ictimai-tarixi ədalətsizlikləri əks etdirən tənqidi şeirləri, həcvləri təkcə yarandığı dövr üçün deyil, bu günümüz üçün də olduqca aktualdır, həyatidir. Şairin mövzu dairəsi, tənqid hədəfləri olduqca genişdir. Bu mövzular, həmin tənqid hədəfləri yalnız rəngini, zamanını dəyişmişdir, mahiyyət isə eynidir, dəyişməzdir. Dünyanın vəfasızlığı, hökmdarların zülmü və etibarsızlığı, yalan və böhtanın ayaq tutub yeriməsi, yaltaqlıq və satqınlığın artması, paxıllıq və namərdliyin çoxalması Xaqanini dərindən narahat edir, onlara münasibət bildirməyə məcbur edirdi. Bu, özünü şairin həm lirik, həm də epik şeir yaradıcılığında aydın şəkildə göstərməkdədir. Həqiqətdir ki, Xaqani nəinki Azərbaycan ədəbiyyatında, həmçinin bütün Şərq ədəbiyyatında qəsidə janrının təkrarolunmaz nümayəndəsi hesab olunur. Şairin çoxsaylı qəsidələrində, eləcə də qəzəl və rübailərində tənqidi pafos aşkar duyulur.

Şair satira haqqında ayrıca danışmamış, lakin «mədhiyyə» və «həcv» anlayışlarına özünəməxsus şəkildə aydınlıq gətirmişdir:

Mədhim şirin, həcvim turşdur, bunu bilir hər bir insan,
Mey alınır üzümümdən, tutiyasa turş qoramdan[1].

Bircə beytdə bədii ədəbiyyata həqiqi sənətkar münasibəti göz önündədir. Şairin mədhiyyədən daha çox həcvə üstünlük verməsi, onu tutiya, yəni nadir, əvəzsiz şəfaverici dərman olaraq səciyyələndirməsi şairin sağlam niyyətlərindən, estetik idealından xəbər verir.

Nizami Gəncəvinin tənqidi şeirləri, cəmiyyət həyatının eybəcərliklərini ifşa edən əsərləri həm təmsil yaradıcılığı şəklində, alleqorik tərzdə, həm də birbaşa, açıq tənqidlə öz ifadəsini tapmışdır. Şairin bütün əsərlərində, xüsusən «Sirlər xəzinəsi» poemasında verilmiş «Ovçu, it və tülkü dastanı», «Meyvəsatanla tülkünün dastanı», «Bülbül ilə qızılquşun dastanı» parkalarında düzlük, halallıq, təvazökarlıq kimi insani keyfiyyətlər təbliğ olunur, əksinə, hiyləgərlik, nadanlıq, mənəm-mənəmlik kimi əxlaqi qüsurlar kəskin şəkildə pislənilir.

XIV əsrdə yaşayıb-yaradan Nizami ədəbi məktəbinin görkəmli nümayəndəsi Ə.Marağalı üzünü zülmkar şahlara, eləcə də oğrularla dilbir, əlbir olan darğalara, yalançı, fırıldaqçı şeyxlərə, hiyləgər, evyıxan qadınlara,

---

[1] Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, s. 107
2 Marağalı Ə. Cami-cəm. Bakı: Lider , 2004

sərxoşluğa qurşanan meşşanlara tutaraq pis əməllərini ifşa edir, onları haqqa, ədalətə, düzlüyə, halallığa, xüsusən də elmə, mərifətə, bir sözlə, insanlığa çağırırdı.[2]

Şairə görə düzlər iş başında olmadıqda fəsadlar törənir, oğrular ölkəni bürüyür. Çünki darğalar, iş başında olanlar oğrularla əlbirdir. Odur ki, şair oğrunu asmaqla işin bitmədiyini deyir. Çünki əsl oğrubaşı elə darğanın özüdür. Şair halallığı, zəhmətlə yaşamağı təqdir edərək, haramı, özgənin mal-mülkünə nəfs salanları, yersiz məğrurluğu, yüngüllüyü, lovğalığı dönə-dönə pisləmişdir.

Nəsiminin tənqidi şeir yaradıcılığı bir sıra əsərlərində, xüsusən şairin «Əcəb» rədifli qəzəlində daha qabarıq şəkildə görünməkdədir. Nədənsə bu şeir haqqında çox az danışılmışdır. Lakin yaşadığı dövrün naqisliklərini bütün kəskinliyi ilə məhz bu şeirində tənqid edən Nəsimi kinayədən, istehzadan yerində və bacarıqla istifadə etmiş, olduqca təsirli bədii lövhələr yaratmaqla məqsədinə, poetik istəyinə müvəffəq olmuşdur.

Ey könül, hər bivücuddan can umarsan, nə əcəb!
Bikərəmdən lütf ilə ehsan umarsan, nə əsəb!
Bişəriətlər nə bilsin ənbiyanın şərtini,
Bitəriqətdən rəhi-ərkan umarsan, nə əcəb!
Hər qayanın ləli olmaz, hər dənizin gövhəri,
Hər sədəfdən lölöi-mərcan umarsan, nə əcəb![1]

Büsbütün bədii təzadlar üzərində qurulmuş qəzəldə tənqid hədəfləri yenə də cahillər, nadanlar dünyası, zülmü, ədalətsizliyi özlərinə peşə edən div xislətli insanlar, vəfasızlardır. Nəsimi aqilanə fikirlərini təzadlar üzərində qursa da şairin oxucuya təlqin etmək istədiyi estetik ideal son dərəcə aydın görünməkdədir.

Xaqani şeirində gördüyümüz kəskinlik, tənqidi-satirik ovqat Nəsiminin tənqidi şeirlərində cəsarətlə ifadə olunduğu kimi, M.Füzulinin ədəbi irsində də yeni mahiyyətdə üzə çıxmışdır.

Vaiz övsafi-cəhənnəm qılır, ey əhli-vərə
Var onun məclisinə, bil ki, cəhənnəm nə imiş[2].

Birbaşa tənqidin, hücumun mahiyyəti aydındır, vaizliyə, geriliyə etirazın hədəfləri, konkret ünvanları məlumdur. Lakin Füzuli şeiri elə bir sehr, sənət möcüzəsidir ki, onu yalnız zahiri cildi ilə həzm etmək olmaz. Burada daha uzaqlara getmək, şairin çatdırmaq istədiyi incə məqamlara

---

1 Nəsimi. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1973, s. 490
[2] Füzuli M. Əsərləri: 6 cilddə, Bakı: Şərq-Qərb, 2005, s. 159

diqqət yetirmək lazımdır. M.Füzulinin haqqında söz açmaq istədiyimiz və sovet dönəmi dərsliklərində bəh-bəhlə şairin ateist mövqeyi kimi təqdim və təqdir olunan “Könül, səccadəyə  basma ayaq, təsbihə əl urma” misrası ilə başlayan qəzəli haqqında çox danışılmış, əsərin daha çox dini ehkamlara, məscidə qarşı yazıldığı qeyd olunmuşdur. Fikrimizcə, mətləb daha dərindir. Qəzəldə namaz əhlinə uymamaq, məsciddən uzaq olmaq və digər fikirlər, heç şübhəsiz, Füzulinin ilk baxışda dini ehkamlara qarşı çıxış etdiyini göstərir. Lakin qəzəli sonadək oxuduqda bu və ya bunun kimi şeirlərin kimlərə qarşı yönəldiyini, əsərdə tənqidi fikirlərin, satirik ovqatın kinayə üstündə qurularaq dini ehkamlara qarşı deyil, «taəti-naqislərə», yəni qüsurlu, nöqsanlı, eyibli ibadətçilərə, yolundan azanlara qarşı tuşlandığını görmək çətin deyildir.

Xaqani Şirvani, Nizami yaradıcılığında olduğu kimi M.Füzulinin poetik irsində də tənqidi-satirik fikirlərin alleqoriya ilə deyilişi  daha çox diqqəti cəlb edir.

Lakin eyni zamanda həm də belə bir qənaətdəyik ki, bəzi istisnalara baxmayaraq, bütövlükdə götürdükdə, klassik poeziyada satiradan danışmaq tezdir. Tənqidin, ciddi şeirin müxtəlif formaları isə geniş şəkildə işlənmişdir. Bunların içərisində birbaşa, açıq tənqidlə yanaşı, həcv və təmsil yaradıcılığının da çəkisi çox böyükdür. Odur ki, ədəbi həqiqət naminə etiraf olunmalıdır ki, XIX və XX əsr satirik şeirinin təşəkkül və inkişaf istiqamətləri nə qədər novatorluğa, Avropa dəyərlərinə söykənsə də, kökə, ilkin qaynaqlara,  folklor motivlərinə xüsusən, klassik poeziya ənənələrinə daha artıq şəkildə bağlıdır.

Fəslin  **“Bədii gülüş XIX əsr Azərbaycan poeziyasında sistemli ədəbiyyat hadisəsi kimi”** adlı ikinci bölməsində həmin ad altında konkret promlem araşdırılır, satira əsri kimi səciyyələndirilən ədəbi mərhələnin tipoloji xüsusiyyətlərindən, ideya-estetik mahiyyətindən danışılır.

Məlumdur ki, XVII əsrdən etibarən Azərbaycan ədəbiyyatında başlanan milliləşmə, demokratikləşmə meyilləri XVIII əsrdə özünü tədricən göstərmişdirsə, XIX əsrdə artıq ədəbi hadisəyə çevrilir. Buna səbəb kimi Qafqazda, o cümlədən Azərbaycanda, bütövlükdə dünyada baş verən kəskin siyasi hadisələri göstərmək olar. Xalqın ətalətdən oyanması, yenilikləri qəbul etməsi öncül ziyalıların mübarizəsinin əsas mahiyyətini təşkil edir. Ölkədə maarifçilik ideyaları əslində ideya-estetik meyarlara çevrilir. Köhnə, vaxtı keçmiş ənənələrə qarşı çıxan maarifçi düşüncə yeni mütərəqqi ideyalar irəli sürür, bəlalardan qurtuluş yolunu maariflənmədə görürdülər. Bu özünü bədii ədəbiyyatın bütün növlərində, xüsusən satirik poeziyada

təcəssüm etdirmiş olur. Lakin satirik poeziyanın maarifçi-realist ədəbiyyatın əsas, aparıcı qoluna çevrilməsi prosesi birdən-birə baş verməmiş, tədrici inkişaf halında özünü göstərmişdir. Odur ki, ilk maarifçilərin ədəbiyyata, xüsusən satirik poeziyaya münasibəti ilə M.F. Axundzadənin yaradıcılığı arasında bərabərlik işarəsi qoymaq mümkün deyildir. Əgər A.Bakıxanov, Q.Zakir, M.Ş.Vazeh satirik ifşanı seçmə yolla, həm də daha çox fərdi istəkləri fonunda qələmə alırdısa, M.F.Axundzadə və S.Ə.Şirvanidə bu proses davam və inkişaf etdirilir və ictimai kəsərini qat-qat gücləndirmiş olur.

Dəyişmiş düzən, baş verən gerçək ziddiyyətli tarixi hadisələr təbəqələşməni sürətləndirir, yeni münasibətləri formalaşdırırdı. Belə bir oyanma, çalxalanma dövründə bədii ədəbiyyat Füzulinin dililə danışa bilməzdi. Bu cəhətləri nəzərə alan Z.Əsgərli «XIX əsr Azərbaycan şeiri antologiyası"na yazdığı ön sözdə haqlı olaraq demişdir: "XIX əsr Azərbaycan poeziyasının əsas qollarından biri də realist satiradır. Ölkənin sosial-iqtisadi həyatında ictimai və milli zülmə, müstəmləkəçilik siyasətinə qarşı etiraz, mövcud vəziyyətdən narazılıq əhvali-ruhiyyəsinin qüvvətlənməsi və xalq azadlıq hərəkatının genişlənməsi – bədii ədəbiyyatda kəskin, açıq tənqidi pafosun meydana gəlməsi ilə nəticələnir: əsrlər boyu gah dəhşətli faciələrlə ağlayan, gah da azadlıq həsrəti ilə alışıb yanan, gözəllik və məhəbbəti tərənnüm edən, qəhrəmanlara və hökmdarlara mədhiyyə oxuyan, təbiətə, bahara, gülə və bülbülə nəğmələr qoşan bəşəriyyət indi bədii təfəkküründə tənqidə geniş yer verir»[1].

Əgər klassik ədəbiyyatımızda satirik meyillər yaradıcılıq fərdiyyəti, şairlik istedadı, eləcə də şair və cəmiyyət münasibətlərinin dolayı bədii həlli ilə bağlı idisə, XIX əsr satirik poeziyaya sifarişçi mövqedən yaradıcılıq meydanı verir, sosial sifarişlə gerçəkliyin vəhdətini yaradırdı. İctimai-siyasi münasibətlərdə kəskin ziddiyyətlər, fərdi münasibətlərin formalaşmasında müəllifin, sənətkarın təsiri məsələləri daha qabarıq şəkildə özünü göstərir, bədii gülüşə, tənqidi fikrə geniş meydan verilirdi.

Odur ki, bədii ədəbiyyatın satiraya köklənməsindən ötrü zamanın yetişməsi əsas məsələdir. XIX əsr isə öz təbiəti ilə buna rəvac verir. Bəllidir ki, XIX əsr Azərbaycanı həm daxili, həm də dünyəvi ziddiyyətlər qovuşuğunda mühüm bir acını, tarixi ayrılıq dövrünü yaşasa da, əslində bunlar xalqın oyanmasına, ziddiyyətlərlə barışmazlıq mövqeyinə gəlməsinə, başqa

[1] Əsgərli Z. XIX əsr Azərbaycan poeziyası (müqəddimə) XIX əsr Azərbacan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, s.56

sözlə desək, cəmiyyətin fikri-mənəvi inkişafına xidmət etmiş oldu.

M.F.Axundzadənin yaradıcılığını dərindən izlədikdə onun satirik dramaturgiyaya heç də birdən-birə gəlib çıxmadığını görmək olar. Bu özünü təkamül nəticəsində, xüsusən şeir yaradıcılığı sayəsində mümkün olmuşdur. M.F.Axundzadənin şeir yaradıcılığında klassik poeziyada rast gəldiyimiz əsas istiqamətlər – zamanın tənqidi, öz halından, dünyanın gedişatından narazılıq motivləri, xalq ədəbiyyatından, Vaqif şeiriyyatından süzülən həyatilik, nikbinlik, eləcə də yumoristik-satirik səciyyə daşıyan poetik nümunələr onu bir şair kimi də dəyərləndirməyə əsas verməkdədir.

Lakin XIX əsr Azərbaycan şeirində satira haqqında danışarkən iki sənətkarın yaradıcılığı xüsusilə diqqəti cəlb edir. Bu sənətkarlardan biri daha çox əsrin birinci yarısında fəaliyyət göztərmişsə, ikincisi XIX əsrin ikinci yarısında yazıb-yaratmışdır. Söhbət, heç şübhəsiz, Qasım bəy Zakir və Seyid Əzim Şirvanidən gedir.

Q.Zakirin zəngin ədəbi irsində tənqidi-satirik şeirlər mühüm yer tutur. Azərbaycan ədəbiyyatında satirik poeziyanın inkişafında XIX əsr yaradıcı ziyalılarının, xüsusən Q.Zakirin rolu barədə M.F.Axundzadədən başlamış, F.Köçərlinin, S.Mümtazın, F.Qasımzadənin, K.Məmmədovun, Ə.Mirəhmə-dovun, Y.Qarayevin, M.Mustafayev və başqalarının elmi araşdırmaları böyük maraq doğurur. Zaman-zaman Azərbaycan alimlərinin Q.Zakir yaradıcılığı barədə elmi baxışlarında bir-birindən fərqli fikirlərə rast gəlinsə də, şairin poetik irsində tənqidi-satirik şeirlərin əsas yeri tutduğunu, əksəriyyət təşkil etdiyini göstərmişlər. Belə bir fikir tamamilə doğrudur ki: «Zakir satirası – «ictimai quruluşu» yox, «ictimai və şəxsi əxlaqı» kökün-dən qazıyırdı. Məhz normal əxlaq amilini fərd və cəmiyyət səviyyəsində rəhbər tutmadan ona hər iki miqyasda eyni dərəcədə nail olmadan cəmiyyətdə elə hey «köhnə quruluşu» dağıtmaq», «yeni quruluş yaratmaq (və mənəvi-əxlaqi tərəqqiyə də hər dəfə yenidən, hər dəfə sıfırdan baş-lamaq!) kimi vulqar materialist və vulqar bolşevik zəifliyindən bu realizm azad idi. Zakirin satirasında cəmiyyətin və mənin» (fərdin) tərcümeyi-halı birləşir. Bu mənada onun ən yaxşı şeirləri sözün həm geniş, həm də dar mənasında avtobioqrafik şeirlərdir»[1].

Bu, həqiqətən də belədir. Zakir daha çox özündən, öz dərdlərindən, rast gəldiyi ədalətsizliklərdən, ona düşmən kəsilən insanlardan yazıbdır. Məsələyə bu cəhətdən yanaşdıqda Zakirin tənqidi-satirik şeirlərini bir yerə

[1] Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzilliklər (iki min ili tamamlayan iki yüz il – XIX və XX yüzilliklər). Bakı: Elm, 2002, s. 203-204

toplayaraq bütövlükdə "Cahannamə", yaxud "Şikayətnamə" adlandırmaq da mümkündür. O da doğrudur ki, şair bəyliyini, imtiyaz sahibliyini heç bir yerdə inkar etməmiş, əksinə, onu "rəiyyətlə boyunduruq yoldaşı" edənləri tənqid atəşinə tutmuşdur. Bununla belə Zakirin tənqidi şeirlərində hər cür naqisliyin, özbaşınalığın acısını dadaraq bunları ümumiləşdirmə bacarığı, ictimai mündəricə ilə təqdim etmə də güclüdür. Görkəmli sənətkar kəskin həcvlərdən tutmuş ictimai satira hesab ediləcək poetik nümunələrə qədər tənqidi-satirik şeirin müxtəlif məzmunlu, müxtəlif biçimli nümunələrini yaratmağa müvəffəq olmuş, həm müasirləri, həm də ədəbi xələflərindən ötrü bu sahədə yol göstərən mayak olaraq fəaliyyət göstərmişdir. Şairin tənqidi-satirik şeirlərini təxmini şəkildə qruplaşdırmalı olsaq, onları aşağıdakı şəkildə təqdim etmək mümkündür:

– məişət zəminində yazılan yumoristik-tənqidi şeirlər
– kəskin həcvlər
– zəmanədən şikayətləri ifadə edən ictimai məzmunlu şeirlər
– tənqidi-satirik şeirlər

Dəqiq araşdırma aparmalı olsaq, şairin ədəbi irsində kəskin həcvlərin, şikayət motivli tənqidi şeirlərin üstünlük təşkil etdiyini görmək mümkündür. Bu cəhətdən şəxsi düşmənlərindən Hüseyn bəyə ünvanladığı silsilə həcvləri, eləcə də "Üsuli və şeyxi təriqət mollalarının həcvi", "Knyaz Xasay xan Usmiyev haqqında həcv" adlı şeirləri daha kəskin ifşaedici məzmunu ilə seçilir. Doğrudur, bu şeirlərdə inciklik, şəxsi düşmənçilikdən gələn nifrət özünü aşkar şəkildə göstərsə də, şairin hədəfə aldığı nöqsanlar, mənəvi eybəcərliklər həm də dövrü, zamanı səciyyələndirir. Odur ki, şairin zəngin yaradıcılığı əyani şəkildə sübut edir ki, Q.Zakir satiraları bir tərəfdən şəxsi yaşantıların, özünə, ailəsinə qarşı haqsız hücumlara cavab reaksiyası şəklində və daha çox aqressiv formada, hücum şeiri şəklində-dirsə, digər qismi bədii ümumiləşdirmə bacarığı ilə, konkret satirik tiplərin poetik təqdimatı ilə yaradılan yeni tipli satira yaradıcılığıdır. Odur ki, bir sıra sənət ziddiyyətlərinə baxmayaraq belə demək mümkündür ki, Zakirin tənqidi-satirik şeirlərindən gələn güc, təpər özündən sonra gələn ədəbi qüv-vələrin, xüsusən S.Ə.Şirvani kimi müqtədir şairin satirik şeir yaradıcılığına öz müsbət təsirini göstərmişdir.

Fəslin üçüncü bölməsi "**XIX əsrin ikinci yarısında ictimai satiranın önə çıxma səbəbləri və inkişaf istiqamətləri"** adlanır. Bu bölmədə S.Ə.Şirvaninin və müasirlərinin simasında ictimai satiranın Azərbaycan poeziyasında özünəməxsus yer tutması konkret bədii nümunələr əsasında şərh edilir.Təkcə Azərbaycan ədəbiyyatında deyil, ümumtürk satirik

şeirində də S.Ə.Şirvaninin mövqeyi müstəsnadır. Əsrin birinci yarısında daha çox Baba bəy Şakir, Qasım bəy Zakir, Mirzə Baxış Nadimlə özünü biruzə verən satirik poeziya artıq XIX əsrin ikinci yarısında S.Ə.Şirvani və digər sənətkarların yaradıcılığında yeni məzmun kəsb edir. Məhz bu zamandan başlayaraq milli satirada maarifçi məfkurə daha da ğüclənir, poetik düşüncə xalq həyatına geniş səpkidə yaxınlaşır, satirik poeziyada həcvçilik nisbətən səngiyir, başqa sözlə, həcvlərin özü də ictimai məzmun daşımağa başlayır. Qeyd etdiyimiz kimi bu dövrün ən böyük sənətkarı XIX əsrin Füzulisi sayılan S.Ə.Şirvanidir. Ürəkləri riqqətə gətirən aşiqanə qəzəllər müəllifi olan şairin ədəbi irsində satiraları mühüm yer tutur. Maarifçi şeirlərində olduğu kimi, satiraları da daha çox mənəviyyatla, tərbiyə və təhsillə bağlıdır. Bu, belə də olmalı idi.Cünki Q.Zakirin satiraları məktəbsiz, mətbuatsız bir cəmiyyətin problemləri, qayğıları ilə bağlı idisə, S.Ə.Şirvani satiraları tamam başqa bir ictimai-ədəbi mühitin, oyanışa köklənən yeni tarixi şəraitin məhsuludur.

S.Ə.Şirvani yaradıcılığında maarifçi satiranın geniş şəkildə işlənməsi, özünü şairin həm həcv yaradıcılığında, həm maarifçi-didaktik şeirlərində, həm də mənzum hekayə və təmsillərində göstərir. Bu məsələlər zaman-zaman Azərbaycan alimlərinin diqqətində olmuş, şairin yaradıcılığına, xüsusən satirik şeirlərinə münasibət bildirilmişdir. Bu cəhətdən S.Ə.Şirvani irsinin layiqli araşdırıcılarından sayılan F.Qasımzadənin, Ə.Mirəhmədovun, S.Hüseynovun, K.Məmmədovun, Y.Qarayevin, Z.Əsgərlinin, T.Novruzovun və başqalarının elmi araşdırmalarını qeyd etmək olar.

Uzun müddət marksist-leninçi ideoloji konsepsiyalarda klassik şairlərin yaradıcılığında ruhanilərin, dini ehkamların, islam dininin tənqidinə, ifşasına geniş yer verildiyi bildirilmiş, sağlığında "Şeyx", "Hacı" adlandırılan yaradıcı simalar az qala ateist kimi qələmə verilmişdir. Belə bir «elmi yanaşma»ya Seyid Əzim də məruz qalmışdır. Ən sadə araşdırma belə bunun doğru dəyərləndirmə olmadığını sübuta yetirir. S.Ə.Şirvani bir çox satiralarında, xüsusən, sovet dövrü dərsliklərində adı daha çox hallandırılan «Köpəyə ehsan», «Müctəhidin təhsildən qayıtması» mənzumələrində heç də dinin əsaslarına deyil, din pərdəsi altında dini, islamı gözdən salanlara, fırıldaqçılara, əslində cəhalət və cahilliyə qarşı etiraz səsini ucaltmışdır. Əgər belə olmasaydı, şair «Quba təziyədarları və xeyməni qarət edənlərə» satirasında məsciddən oğurluq edənləri satirik ifşa obyektinə çevirməzdi.

S.Ə.Şirvaninin satirik şeir yaradıcılığından danışarkən onunla eyni dövrdə, əsrin ikinci yarısında yazıb-yaradan digər satirik şeir ustalarını yaddan çıxarmaq olmaz. Bunlardan M.M.Şükuhini, M.Xalxalini, H.F.Ordu-

badini, M.İ.Qasiri, Abbas ağa Nazir və başqalarını göstərmək olar. Maraqlı cəhət həm də ondan ibarətdir ki, bu şairlərin əksəriyyəti S.Ə.Şirvani kimi məktəbdarlıqla, müəllimliklə məşğul olmuş, ölkədə savadsızlığın, cəhalətin aradan qalxması üçün bütün imkanlardan istifadə etməyə çalışmışlar. Bu cəhətdən M.İ.Qasirin satira yaradıcılığı daha xarakterikdir.

M.İ.Qasirin ədəbi irsi klassik üslubda yazılmış qəzəllərdən, tərcibənd, tərkibənd, qitə və rübailərdən, eləcə də mənzum məktublarından, satiralardan ibarətdir. Aşiqanə səpkidə yazdığı şeirlər, xüsusilə «Eylər», «Düşər», «Gəlir», «Düşdü», «Bax» rədifli qəzəlləri orijinal deyim tərzi ilə maraq doğursa da, Qasir yaradıcılığında satirik şeir yaradıcılığı xüsusi bir önəm daşıyır.

M.İ.Qasirin həməsri, maraqlı əsərləri ilə yaddaşlardan heç zaman silinməyən H.F.Ordubadinin də satirik şeir yaradıcılığı bədii və tarixi əhəmiyyəti ilə diqqəti çəkməkdədir. Şairin "Dünya əhlini məzəmmət" şeirində dunyadan, baş verən hadisələrdən narazılıq, giley-güzar ahəngi varsa da, "Kürdün çul satması" mənzuməsində ictimai bəlaları, ölkədə hökm sürən özbaşınalıqdan, xalqın ağır vəziyyətindən istifadə edən çar məmurlarının rüşvətxorluğundan, ədalətsizliyindən söz açılır, satirik ifşa hədəfinə çevrilməsi göstərilir.

M.İ.Qasir Lənkəranda, H.F.Ordubadi Ordubadda yazıb-yaratdığı dövrdə Qazaxda Abbas ağa Nazir də satirik şeir yaradıcılığı ilə ardıcıl şəkildə məşğul olmuş, gördüyü nöqsanlara kəskin etirazını bildirmişdir.

Dissertasiyanın **"Yeni tipli inqilabi satiranın M.Ə.Sabir mərhələsi və poetik ənənələri"** adlanan III fəsli iki bölmədən ibarətdir. "**Tənqidi-realist satirada ictimai oyanışa çağırış motivləri və Sabir satirik şeir məktəbinin yaranması"** adlanan birinci bölməsində göstərilir ki, XIX əsr Azərbaycan ədəbiyyatında satirik poeziya sistemli ədəbi hadisə səviyyəsinə yüksəlmişdirsə, XX əsr ədəbiyyatında satirik şeir gerçəkliyin poetik ifadəsi üçün bir zərurətə çevrilmişdi. Bu zərurət XX əsrin əvvəllərində Bakıda nəşr olunan müxtəlif təmayüllü satira jurnallarında, dövrün tanınmış söz sənətkarlarının yaradıcılığında öz ifadəsini tapdı.

XX əsr Azərbaycan poeziyasında satirik şeirin zirvəsi, heç şübhəsiz, Mirzə Ələkbər Sabirdir. Lakin Sabir birdən-birə, ədəbi zəminsiz həmin zirvəni fəth edə bilməzdi. Odur ki, XX əsrdə baş verən olduqca ciddi ictimai-siyasi dəyişikliklərə geniş şərh vermədən əsrin əvvəllərində zamanın sifarişi olaraq meydana gələn satirik dərgilər haqqında danışmadan və «Molla Nəsrəddin» satirik jurnalının yaradıcısı Mirzə Cəlilin söz-sənət sahiblərinə örnək ola biləcək satirik yaradıcılığına diqqət yetirmədən real

mənzərə görünməz, dövrün satiraya olan sifarişi, həyati zərurət kimi meydana gəlişi çətin anlaşılar.

Dövrün bədii ədəbiyyata, xüsusən yeni tipli satiraya ədəbi sifarişi barədə danışarkən N.Paşayeva haqlı olaraq göstərmişdir ki: «Ədəbiyyat M.F.Axundovla başlayan tendensiyanı davam etdirdi: üzünü xalqa tutdu, «fəhlə, özünü sən də bir insanmı sanırsan?» sualına «Bəli, fəhlə də insandır» – cavabını verdi, «kiçik adam»ların dəyəri və taleyi müəllifin baxış bucaqlarından sənətə gəldi»[1].

Doğrudur, C.Məmmədquluzadə əsasən satirik hekayələri, felyetonları, bədii nəsri, eləcə də dramaturji fəaliyyəti ilə diqqəti çəkir. Lakin satirik poeziya sahəsində xidmətləri də az olmamışdır. Ədəbi müqayisələr yerində olanda fikir daha da konkretləşir, həqiqi mənzərə nəzərimizdə canlanır. Bunu deyərkən ədəbiyyatımızın yaradıcı simaları haqqında obrazlı şəkildə səciyyələndirmə verən prof. Y.Qarayevin fikirləri daha çox diqqəti cəlb edir: «Bizim ədəbiyyatda ağlın dastanına zirvə – Nizamidir; eşqin və qəmin faciəsinə meyar Füzulidir; qeyrətin ağrısına, namus yanğısına timsal – Sabirdir; həm eşq, həm ağıl, həm də qeyrət üçün borcun, cavabdehliyin ölçüsünə əmsal – Cəlil Məmmədquluzadədir!»[2]. Yekun qənaətlər şəklində söylənmiş bu hakimanə fikirlərin reallığı kimsədə şübhə doğurmur. Bir cəhət də xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan ədəbiyyatında yeni tipli satirik poeziya dedikdə, heç şübhəsiz, M.Ə.Sabir yada düşür. Lakin bu da həqiqətdir ki, «Molla Nəsrəddin»in ilk saylarında məhz Mirzə Cəlilin satirik şeirləri işıq üzü görmüş, poeziyada satirik istiqamət, satirik yaradıcılıq üsulu əsasən onun tərəfindən gətirilmiş, bir çoxları, eləcə də Sabir üçün də ədəbi nümunə, örnək rolunu oynaya bilmişdir.

Böyük Sabirin C.Məmmədquluzadə ilə sənətkarlıq oxşarlıqları onların həyata baxışlarından, yaradıcılıq qüdrətindən qaynaqlansa da fərqli məqamlar da çoxdur. Ən əsası odur ki, satirik nəsrdə Mirzə Cəlil hansı ucalıqdadırsa, poeziyada, satirik şeirdə də M.Ə.Sabirin həmin zirvəni fəth etdiyi şəksizdir.

Sabirə müvəffəqiyyət qazandıran cəhət həm də onun yaradıcılığı ilə şəxsiyyət bütövlüyüdür. M.Cəlal bu incə cəhətə xüsusi önəm verərək demişdir: «Məlumdur ki, satira müəllifinin satiraya tutulan hədəfdən çox yüksəkdə durmasını tələb edir. Tənqidi gülüş o zaman müvəffəqiyyətlə səslənir ki, gülən adam mənəvi cəhətdən yüksəkdə, gülüş hədəfi isə mənəvi

---

[1] Paşayeva N. Yeniləşən ədəbiyyatın yeni insanı. Bakı: ATİ nəşriyyatı, 2004, s. 18

[2] Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, s. 238

cəhətdən alçaq adamlar olsunlar»[1]. Bu fikirlər M.Ə.Sabir yaradıcılığını, Sabir şəxsiyyətini çox düzgün xarakterizə edir.

M.Ə.Sabirin sənət möcüzəsindən bu və ya digər şəkildə danışmayan ədəbiyyat, sənət bilicilərinə rast gəlmək çətindir. Ə.Nazim, M.Ələkbərli, H.Araslı, C.Xəndan, M.Cəlal, M.Quluzadə, A.Zamanov, M.İbrahimov, Ə.Mirəhmədov, Ə.Şərif, K.Talıbzadə, M.Hüseyn, M.Məmmədov, K.Məmmədov, H.Orucəli, Ş.Qurbanov, Ə.Saləddin, Y.Qarayev, F.Hüseynov, A.Bayramoğlu, N.Paşayeva, X.Əlimirzəyev, Ş.Salmanov, Z.Əsgərli, T.Novruzov, B.Əhmədov və digər ədəbiyyatşünaslarla yanaşı, Ə.Dəmirçizadə, T.Hacıyev, A.Axundov, M.Adilov, S.Əlizadə, Y.Seyidov, Q.Kazımov, R.Məhərrəmova kimi dilçi alimlərin də Sabirin şeir dili, satirik yaradıcılıq üslubu barədə araşdırmaları böyük maraq doğurur.

Sabir satirik şeir yaradıcılığı ilə yeni dövr ədəbiyyatımızda həqiqi bir yüksəliş yaratmağa, yeni bir istiqamət, yeni bir mərhələ – Sabir satirik şeiri mərhələsi yaratmağa, yeni yaradıcı mühit düzənləməyə nail ola bilmişdir. Sabirə qədərki Azərbaycan poeziyasında satira özünə müəyyən qədər yer ala bilsə də etiraf etməliyik ki, Sabir biçimində, Sabir üslubunda davamlı şəkildə olmamış, satirik poeziya sahəsində Sabir şeiri ucalığına yüksəlməmişdir. Klassik poeziyada satirik həcvlər, ictimai motivli şeir nümunələri daha çox birbaşa tənqid xarakterində, açıq, müstəqim gülüşdür. Sənətkar sözün qüdrətilə fənalıqları göstərir, onlara gülməklə, qəzəblənməklə bizi də güldürür, qəzəbləndirir. Sabirin yeni tipli satirasında isə gülüş ilk baxışda görünmür, sənətkar ciddi şəkildə, az qala inandırıcı halda sözünü deyir, yaxud ifşa etdiyi satirik tipi danışdırır, nəticə çıxarmağı isə oxucunun ixtiyarına buraxır. Görkəmli rus ədəbiyyatşünası M.M.Baxtin «Dostoyevski poetikasının problemləri» əsərində belə bir gülüşü «reduksiyaya uğrayan gülüş» adlandıraraq demişdir: «Reduksiyaya uğramış gülüş hadisəsi dünya ədəbiyyatında kifayət qədər vacib əhəmiyyətə malikdir. Reduksiyaya uğramış gülüş bilavasitə ifadə formasından məhrumdur, necə deyərlər, «səslənmir», lakin onun izi obrazın və sözün strukturunda saxlanılır, orada duyulur»[2]. Başqa sözlə desək, M.M.Baxtin Qoqolun sözlərini azacıq dəyişərək Dostoyevski yaradıcılığında «gözə görünməyən gülüş»dən danışır. Məsələyə bu cəhətdən yanaşdıqda birmənalı şəkildə demək mümkündür ki, Sabir gülüşü, Mirzə Cəlil gülüşü, əslində göz yaşları içərisində olan gülüşdür. Təsadüfi deyildir ki, Sabir gizli imzalarından birini «Ağlar güləyən»

---

[1] Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. Bakı: Ziya-Nurlan, 2004, s. 146

[2] Baxtin M. Dostoyevski poetikasının problemləri. Bakı: BSU "Kitab aləmi" nəşriyyat-poliqrafiya mərkəzi, 2005, s. 156

şəklində işlətmişdir. Burada gülüşlə göz yaşları birləşir. Gözə görünən gülüşdürsə, gözə görünməyəni acı göz yaşlarıdır. Lakin bu göz yaşları insanları, oxucuları ətalətə, pessimizmə, acizliyə deyil, mübarizəyə, oyanışa, insan kimi öz təyinatını dərk etməyə çağırır.

Sabir şeirə, sənətə yalnız məzmun yeniliyi gətirməmişdir. O, köhnə formanın özünü yaradıcı şəkildə dəyişməyə müvəffəq olmuş, bəzən də tamamilə yeni formalar, özünə qədərki şeirdə işlənməyən şəkillər gətirməklə Azərbaycan şeirini, satirik poeziyamızı həm ideya-məzmun, həm də şəkil, forma cəhətdən də inkişaf etdirmişdir. Yaratdığı hər forma da satirik məzmuna uyğundur. Sabirin olduqca maraqlı ifşa üsulları vardır. Tip danışır, danışdıqca özünü ifşa edir. Bu üsul, deyək ki, o qədər də yeni deyil. Füzulinin alleqoriyalarını yada salsaq, M.F.Axundzadənin komediyalarını, yaxud «Aldanmış kəvakib»də saray əyanlarının şəxsi «sücaətləri» barədə söhbətlərini xatırlasaq, kifayətdir. Fərq ondadır ki, Sabirin tipləri daha qabarıqdır, daha inandırıcıdır və daha gülüncdür. Bu cəhətdən sənətkarın «Millət necə tarac olur olsun, nə işim var?!», «Bakı fəhlələrinə», «Cəhd eylə, sən ancaq nəzəri-xəlqdə pak ol», «Təhsili-elm», «Ata-nəsihəti», «Mən bilməz idim bəxtdə bu nikbət olurmuş», «Xəsisin heyfi, varisin keyfi», «Amalımız, əfkarımız ifnayi-vətəndir», «Vay, vay! Nə yaman müşkülə düşdü işim, Allah», «Övradımız, əzkarımız əfsaneyi-zəndir», «Fəhlə, özünü sən də bir insanmı sanırsan?!», «Təraneyi-əsilanə», «Əkinçi». «Fəxriyyə», «Səbir», «Bizə nə?!», «Olmur, olmasın», «Bəxtəvər», «Şikayət», «İran özümündür», «Qoyma gəldi!», «Uşaqdır uşağım!», «Cavan», «Ax!... Necə kef çəkməli əyyam idi», «Çatlayır, Xanbacı, qəmdən ürəyim», «Vah!... Bu imiş dərsi-üsuli-cədid?!», «Satıram», «Yaşamaq istər isək sırf əvam olmalıyız», «Adəmi adəm eyləyən paradır», «Kim nə deyər bizdə olan qeyrətə», «Qocalar marşı», «Ürəfa marşı», «Bir bölük boşboğazlıq, heyvərəlik adətimiz», «Oxutmuram, əl çəkin!» və sair bu kimi satiraları geniş söhbətin mövzusudur. Bir cəhət də qeyd olunmalıdır ki, şair bəzən monoloji deyil, dialoji nitqə də yer verir, canlı, təbii söhbət əsnasında müsahiblərdən birinin, yaxud hər ikisinin cahilliyi, geriliyi ortaya qoyulur. Cavan-qoca dialoqunda cavan yeniliyin tərəfdarıdırsa, qoca dünənin, köhnəliyin, ətalətin nümayəndəsidir.

Sabir bəzi hallarda özü danışır, təsvirə geniş yer verir, üzünü ifşa etdiyi tipə tutaraq sözünü deyir. Müəllifin fikirlərində açıq istehzanı, kəskin kinayəni sezmək çətin deyildir. Bütün bunlar da öz növbəsində qüvvətli gülüş, ifşa effekti yaradır. «Tərpənmə, amandır, bala, qəflətdən ayılma». «Fahrat kişi», «Millət şərqisi», «Bəlayi-fəqrə düşdün razı ol, biçarə, səbr

eylə!» satiraları bu cəhətdən xarakterikdir.

Sabirin satiraları irəliləyişə, inkişafa köklənmişdir. Şair ətalətin, xurafatın düşmənidir. Səbəb odur ki, ətalət, xurafat yayanlar millətə ən ağır zərbəni vuraraq, onu inkişafdan, tərəqqidən saxlayırlar. Bu yerdə islamı deyil, dini xurafatı təbliğ edən «ruhanilərin» əməyi az olmadığından onlar şairin satirik qırmancına daha tez-tez tuş gəlirlər.

XX əsrin əvvəllərində siyasi meydanda oyanmanın, ədəbi mühidə milli-azadlıq ideyaların bu və ya digər şəkildə əks olunması, «Molla Nəsrəddin»in nəşri ilə oxşar üsluba malik sənətkarların yaxınlaşması, satirik dərgi ətrafında daha sıx birləşməsi tarixi həqiqətdir. Hələ şairin sağlığında onun və "Molla Nəsrəddin"in yolu ilə gedən, Əli Nəzmi (Sijimqulu), Bayraməli Abbaszadə (Hammal), Əli Razi Şamçızadə (Dabanıçatdaq xala), Əliqulu Qəmküsar (Cüvəllağı), M.S.Ordubadi (Hərdəmxəyal), Mirzə Əli Möcüz (Şəbüstəri), Abbas Səhhət, Salman Mümtaz (Xortdan bəy) Səməd Mənsur, Cəfər Cabbarlı, Əliağa Vahid və başqaları M.Ə.Sabir satirik şeir məktəbinin parlaq ulduzları kimi fərqlənmişlər. Doğrudur, mollanəsrəddinçi satirik şeir məktəbinə mənsub olan, Sabirin şeir üslubuna yaxınlığı ilə fərqlənən, bir qismi həmin əsrin 30-cu illərinin repressiyasına uğrayan bu ədiblərin böyük əksəriyyəti M.Ə.Sabirdən sonrakı mərhələdə, sovet dönəmində də yazıb-yaratmış, satirik poeziyanın inkişafına öz töhfəsini vermişlər.

Üçüncü fəslin **"Bədii ədəbiyyata siyasi basqı mühitində satirik poeziyanın zəifləməsi və dövrün ədəbi prosesində rolu"** adlı ikinci bölməsində sovet siyasi rejiminin təpkisi altında bədii ədəbiyyatın, xüsusən satirik poeziyanın hədəflərindən uzaqlaşmasından, azad sözün təqibi şəraitində satirik şeir yaradıcılığının ifadə imkanlarından danışılır.

Proletariatın ideoloqu Leninin partiyalı ədəbiyyat devizindən dərs alan qırmızı düşərgəyə xidmətdə olan ədəbi mühitin fərqli siyasi düzənlərə, digər ictimai quruluşlara pataloji nifrəti əski mədəniyyətlərin az qala büsbütün inkarına, proletkultçuların meydan sulamasına imkan yaratmışdı. Lakin bolşevik-kommunist məfkurəsi nə qədər dəridən-qabığdan çıxsa da, cəmiyyət öz mövqeyini göstərməyə bilməzdi. Cəmiyyət tənqidi fikrə, satirik poeziyaya bir növ hamilə idi. Lakin ədiblərin, şairlərin başı üzərindən asılan Domokl qılıncları azad, sərbəst yaradıcılığa imkan vermir, «hər nə yaxşıdır» fikri poeziyaya bir süstlük gətirir, məddahçılıq baş alıb gedir, satirik poeziyanın inkişafı süni olaraq ləngidilir, açıqfikirlilik təqib olunurdu. Dövrün, daha dəqiq desək, ictimai quruluşun, bolşevik-kommunist rejiminin bədii sənətə, xüsusən «Molla Nəsrəddin» irsinə, satirik

ədəbiyyata təpkisi barədə danışarkən N.Cəfərov haqlı olaraq qeyd etmişdir ki: «Haqqında söhbət gedən mərhələnin əsas janrları – publisistika, dramaturgiya söndü, «Molla Nəsrəddin» məcmuəsi dövlət ideologiyası tərəfindən sıxışdırılıb məhv edildi, dramaturgiya böyük dramaturq Cəfər Cabbarlının şəxsində ideya-estetik dəyərini, problematika imkanlarını itirib «sosialist»ləşdi. Bununla belə, 20-30-cu illərdə sovet ideologiyasının nə qədər təzyiqinə məruz qalsalar da, gələcək böyük ədəbiyyatın hələ gənc olan nümayəndələri – Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov yetişirdilər»[1].

Amma bir real fakt, gerçək həqiqət onda idi ki, rejim yeni Mirzə Cəlillərə, Sabirlərə imkan verməz, satirik poeziyanın artan sürətlə inkişafına heç vəclə razı ola bilməzdi. Çünki satirik gülüşdə mənəvi iflasını, quruluşun çürüklüyü görünərdi.

Satirik poeziyada durğunluq müşahidə olunduğu kimi,ədəbi tənqid də müəyyən qədər susqunluq göstərir.1930-1940-cı illərdə ara-sıra dərc olunan məlumatları, qeydləri nəzərə almasaq, həmin illərin dövrü mətbuatında satirik bədii ədəbiyyat haqqında geniş söhbət açılmır. 1941-ci ilin aprelində «Molla Nəsrəddin» jurnalının 35 illiyi münasibəti ilə Cəfər Xəndanın «Kommunist» qəzetində dərc etdirdiyi «İlk satirik jurnalımız» məqaləsi yaranmış sakitliyi pozur. Müəllif adı çəkilən qəzet məqaləsində «Molla Nəsrəddin» jurnalının keçdiyi şərəfli yola diqqət yetirir, jurnalın Azərbaycan ədəbiyyatı, xüsusən satirik poeziyamızın inkişafı tarixində oynadığı pozitiv rolu açıqlayır və sonda deyirdi: «Azərbaycan Sovet Yazıçıları İttifaqı «Molla Nəsrəddin» jurnalının iş təcrübəsindən istifadə edərək, dövrümüzün tələblərinə uyğun satiranın yaranmasına çalışmalıdır»[2].

Ədalət naminə onu da qeyd etmək lazımdır ki, dövrün ədəbi tənqidi təkcə vəziyyəti təsvir etməklə, kədərli nəticələr çıxarmaqla kifayətlənmir. Görkəmli satiriklərin ədəbi irsinə müraciətlər olunur, barələrində silsilə oçerklər, ədəbi-tənqidi məqalələr dərc olunur. Bundan məqsəd həm klassik irsimizin tədqiqi, öyrənilməsi və təbliği idisə, digər tərəfdən satirik şeir necə olmalıdır sualına cavablar aranırdı.

Dövrün xarakterik cəhəti sənətkarın sözünü azad şəkildə deyə bilməməsi, ifadə məhdudluğu ilə xarakterizə olunur.Bu cəhət bədii düşüncənin bütün sahələrində özünü büruzə verirdi. Odur ki, satirik poeziyada dişsizliyin, kəsərsizliyin özünü göstərməsi, kəskin ifşanın, öldürücü

---

[1] Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı: Çaşıoğlu, 2004, s. 153-154

[2] Hacıyev C.X. İlk satirak jurnalımız. «Kommunist» qəz., 1941, 20 aprel

gülüşün olmaması komediya janrında da özünü qabarıq şəkildə göstərirdi. Bu istiqamətdə məşhur komediya ustası Sabit Rəhmanın əsərlərinə, xüsusən onun «Nişanlı qız» əsərinə yönələn tənqidlərə B.Əhmədov çox düzgün münasibət bildirərək nöqsanı sənətkarın istedadında, bacarığında deyil, bədii sənətə qoyulmuş qadağalardan, başqa sözlə desək, yaradıcılıq metodunda görməyi doğru saymışdır: «Konfliktsizlik nəzəriyyəsi» müəllifə hadisələrin üzdən təsvir etməsinə imkan yaratmışdır… Belə ki, komedoqraf burada sosial satira və guluş formalarından «sosialist realizmi» prinsiplərinin imkan verdiyi qədər istifadə edə bilmişdir»[1].

Maraq doğuran daha bir cəhət ondadır ki, rejim Mirzə Cəlillərə, Sabirlərə imkan vermədiyi, satirik poeziyanı təpki altında, sifarişlə iş görməyə çalışdığı halda, xalqın bağrından, istəyindən kükrəyərək ildırım kimi əyrilərin başında çaxan M.Cəlil və Sabir satirasını da özəlləşdirmək, sovetləşdirmək, sosialistləşdirmək meyilləri dövrün məfkurəvi ədəbi tənqidində özünə geniş şəkildə yer alır, bədii mühitə, elmi düşüncəyə yanlışlıq gətirirdi. Bu kimi meyillərə qarşı N.Paşayeva haqlı olaraq öz kəskin etirazını bildirərək yazmışdır: «Təbii ki, Azərbaycan ədəbiyyatında sosialist realizminin tənqidi realizmin bətnindən doğulması, özünə «milli zəmin» tapması məsələsi həddindən artıq şişirdilmişdir. Bu təsəvvür isə ədəbiyyata inzibati-amirlik metodu ilə yanaşmanın nəticəsində doğurmuşdur. İstər Sabir, istər Mirzə Cəlil, istərsə də digər tənqidi realistlər heç bir bolşevik ideyalarının təsiri ilə yazıb-yaratmamışlar. Mövcud quruluşa qarşı açıq mübarizə, geriliyin, nadanlığın ifşası, fəhləyə, kəndliyə, əməkçi xalqa rəğbət onları tənqidi realizmindən həyata, gerçəkliyə ayıq və oyaq münasibətindən gəlirdi»[2].

Keçən əsrin ortalarında satirik poeziyasının inkişafından danışarkən müharibə dövrü şeir yaradıcılığını unutmaq olmaz. Müharibənin başlanması ilə sanki sovet ideoloqlarının yadına satirik poeziyadan düşmən əleyhinə güclü bədii silah kimi istifadə etmək düşür. Dövrün satirik poeziyası əsrin əvvəlləri səviyyəsinə, həmin satirik mövqelərə yüksələ bilməsə də həm ön, həm də arxa cəbhədə olan əyintilərlə mübarizədə öz köməyini əsirgəmir. Müharibə dövrü poeziyamızda müharibə canilərinin, alman faşistlərinin, xüsusən əli təkcə öz xalqının deyil, digər dünya xalqlarının da qanına bulaşmış Hitlerin mənfur siması şərin, əhrimənliyin rəmzi kimi ifşa obyektinə çevrilmişdir. Satirik poeziya bu zaman döyüşən ordu kimi öndə

---

[1] Əhmədov B. Sabit Rəhman: həyatı, mühiti, yaradıcılığı. Bakı: Elm və təhsil, 2010, s. 215

[2] Paşayeva N. Yeniləşən ədəbiyyatın yeni insanı. Bakı: ATİ nəşriyyatı, 2004, s. 25

getməyə çalışmış, Azərbaycan şairlərinin satirik şeir yaradıcılığında ifşaedici mahiyyət daşıyan, müharibəyə, müharibə canilərinə nifrət, qəzəb doğuran poetik nümunələrə geniş yer verilmişdir. Belə xarakterik cəhətlərə qələmini süngüyə çevirdiyini söyləyən S.Vurğunla yanaşı, S.Rüstəmin, R.Rzanın, M.Rahimin, M.Şəhriyarın yaradıcılığında da rast gəlmək mümkündür. Lakin həqiqət naminə qeyd olunmalıdır ki, müharibə dövrü satirik şeirimizdə böyük Sabir yadigarı Ə.Nəzmi ilə Ə.Vahid yaradıcılığında hitlerizmin, müharibə canilərinin ifşası daha əhatəli şəkildə işlənmişdir.

Dissertasiyanın dördüncü fəsli **"İctimai bədii şüurun yeni mərhələsində satirik poeziyanın mövzu, ideya və sənətkarlıq axtarışları"** adlanır. Həmin fəslin **"İcazəli "demokratiya"nın satirik poeziyada özünüifadə imkanları və tənqidi-satirik şeirin tədrici inkişaf meyilləri"** adlanan birinci yarımfəslində göstərilir ki, sovet cəmiyyətində, xüsusən yüksək siyasi dairələrdə gedən proseslər bədii düşüncədə öz izlərini ilk növbədə satirada tapırdı. Satiranın silahı sosialist çərçivə realizminin tələbləri ilə kəsərdən düşsə də zəmanə özünü çirkabdan təmizləməyə mənəvi tələbat duyurdu. «Kirpi» satirik jurnalı məhz bu ehtiyacdan, zərurətdən yaranmışdı.

Düzdür, "Kirpi" yaranmış boşluğu müəyyən qədər doldursa da, amma əsasən asan sayıla bilən, icazəli problemlərə diqqət ayırırdı.

Hesab edirəm ki, Q.Xəlilovun 1963-cü ildə «Ədəbiyyat və incəsənət» qəzetində çap etdirdiyi «Satiranın sərrast atəşi ilə» məqaləsində qaldırılan problemlər bütünlüklə həm də «Kirpi»yə aid olub, dövrün satirik ovqatını düzgün müəyyənləşdirir: «Bizim satiramız tənqid hədəfini lap yaxında qoyur, özünü görməməzliyə vurur, gülləni havaya boşaldır, oğrunu, əliəyrini, rüşvətxoru, bürokratı, süründürməçini, yaltağı, ikiüzlünü konkret faktlar əsasında deyil, ümumi, ünvansız tənqid edir. Mövzu məhdudluğu və predmetsizlik şairlərimizin bir çoxunu həyata birtərəfli, yanlış münasibətindən doğursa, yaradıcılıq cəsarətinin azlığı da bu nöqsanı qabarıqlaşdırır»[1].

Lakin, ədalət naminə qeyd olunmalıdır ki, «Kirpi» məhz bu illər pərakəndə halda olan satirik poeziya düşərgəsini qismən də olsa bir araya gətirə bildi. Doğrudur, «Kirpi»nin səhifələrində kəskin ictimai problemlərdən yan keçilir, əhalinin üzləşdiyi əsas çətinliklər, dövlət həyatının, siyasi gedişatın tənqid və ifşası verilmirdi. «Molla Nəsrəddin»in duzlu, məzəli olmaqla həm də ictimai kəsərə malik dili «Kirpi»də son dərəcə

---

[1] Xəlilov Q. Satiranın rərrast atəşi ilə. «Ədəbiyyat və incəsənət» qəz., 1963, 9 fevral

zəifləyir. Bununla belə mövcud tarixi şəraitdə, «Kirpi»nin gördüyü işlər müsbət hal kimi dəyərləndirilməlidir. «Kirpi» sübut etdi ki, sovet cəmiyyəti heç də bolşevik ideoloqlarının söylədiyi kimi ideal cəmiyyət deyildir. «Kirpi»nin daha bir üstün cəhəti ondadır ki, o, relsdən çıxmış satira qatarını öz yoluna yönəldə bildi, əbədi mühitdə satiriklər kimi ad-san qazanmağa nail ola bilmiş şairlərin yaradıcılığına təkan verməklə Azərbaycan ədəbiyyatında satirik poeziyanın yeni tarixi şəraitdə inkişafını təmin etdi.

Keçən əsrin 60-cı illərindən başlayaraq sovet cəmiyyətinin demokratiyaya doğru meyillənməsi, repressiyaların səngiməsi, azad sözə görə təqiblərin elliklə pislənməsi, 30-cu illər qurbanlarının bəraət alması ədəbi mühitdə öz müsbət təsirini göstərməyə bilməzdi. Belə bir dönüş anında bədii ədəbiyyatın poeziya, nəsr və dramaturgiya qanadlarında köhnə imzalarla yanaşı yeni, yaradıcı təfəkkürə malik ədəbi gənclik meydana atıldı və öz sözünü deməyə başladı. Bu dövrün, zamanın ədəbiyyat laborotoriyasında poeziyanın meydanı daha da genişləndi. Artıq «Kirpi»də müəyyən təcrübə qazanan, zamanın xofu canlarından tədricən çıxan ədəbi qüvvələr satirik poeziyanın inkişafında bir sıra irəliləyişlərə nail ola bildilər.

Yaşlı nəslin nümayəndələrindən S.Rüstəm və M.Rahimlə yanaşı, orta və gənc nəslin nümayəndələrindən sayılan R.Əhmədzadə, R.Zəbioğlu, H.Ziya, Y.Həsənbəy, Ə.Məmmədov, Rəfiq Zəka və başqaları satirik poeziya yaradıcılığına xüsusi önəm vermiş oldular. Qeyd olunan bölmədə həmçinin X.Rza, Balasadıq, İ.Etibar, M.Quliyev, N.Xəzri, C.Novruz, Qabil, B.Pünhan və digər şairlərin satirik şeir yaradıcılığı nəzərdən keçirilmiş, filoloji təhlilə cəlb olunmuşdur. Fəslin **“Satirik poeziyada sənətkarlıq məsələləri”** adlı ikinci bölməsində sənətkarların bədii dildən istifadə imkanları araşdırılmış, ifşa üsulları nəzərdən keçirilmişdir.

Lirik şeirin müxtəlif janrlarında poetik obrazlılıq yaradan, müqayisə yolu ilə həm təsvir, həm də ifadə vasitələrinin işləndiyini, müəllifin izlədiyi estetik ideala xidmət etdiyini görmək mümkündür. Bu cəhət satirik şeirlərdə də bütün hallarda tam dolğunluğu ilə özünü göstərməkdədir. M.Ə.Sabir poeziyasından gətirdiyimiz nümunələr fikrimizi bir daha təsdiq etməkdədir. Şair təşbeh, epitet, metafora, metonimiya, eləcə də mübaliğə, bədii sual, bədii təzad, kinayə, təkrir kimi məcaz növlərindən yerində və bacarıqla istifadə etməklə ifşa effektini qat-qat gücləndirməyə nail ola bilmişdir.

Satirik poeziyanın mahiyyətində, daxili qatında kinayənin, istehzanın olması təbiidir. Odur ki, məcazların bütün hallarında sözün zahiri cildi ilə

həqiqi mahiyyəti arasında ziddiyyət gülüş effektini şərtləndirir.

Daş qəlbli insanları neylərdin, ilahi?!
Bizdə bu soyuq qanları neylərdin, ilahi?![1]

misraları ilə başlanan satirada maraqlı satirik yükə malik «daş qəlbli insanlar», «soyuq qanlar», «hər zülmə dözən canlar», «surtuqlu müsəlmanlar», «qeyrətli danosbazlar» məhz ifşa niyyətilə yaradılmış epitetlərdir.

Sabir yaradıcılığında, eləcə də digər satirik şairlərin ədəbi irsində məcazlar sistemindən məqamında və bacarıqla istifadə edildiyini görürük.

Əqrəb kimi neştər gücü var dırnağımızda,
İslam susuz olsa, su yox bardağımızda,
Hər küncdə min tülkü yatıb çardağımızda,
Min hiylə qurub, rütbəvü ikram alırız biz,
Qafqazlılarız, yol kəsiriz, nam alırız biz![2]

M.Ə.Sabirin digər əsərlərində olduğu kimi, «Amalımız, əfkarımız ifnayi-vətəndir» şeirindən verilən nümunədə satirik ifşanı həyata keçirmək-dən ötrü təşbehdən (əqrəb kimi), bədii təzaddan, metaforadan istifadə etməklə satirik ifşa əsas məqsədinə nail ola bilmişdir.

Bu və ya digər halları Q.Zakir, S.Əzim, M.İ.Qasir, A.Nazir, Ə.Nəzmi, Ə.Qəmküsar, Ə.Vahid, C.Cabbarlı, M.S.Ordubadi, R.Əhmədzadə, B.Pün-han və digər satirik şairlərin yaradıcılığında genişliyi ilə izləmək mümkündür.

M.Cəlal Mirzə Cəlilin satirası haqqında danışarkən «Azərbaycan ədəbiyyatında işlənməyən bir sıra yeni və təsirli gülüş üsulları vardır», – demişdir[3]. Müəllif bunların içərisində müqayisə, kinayə, üstüörtülü, üçüncü şəxsin dilindən istifadə etmə, ictimai istehza, eyham, işarə, rəmz, şiddətli və müstəqim tənqid, eləcə də hücumçu mübahisə üsullarından geniş istifadə olunduğunu konkret misallar əsasında sübuta yetirmişdir. Qeyd etmək lazımdır ki, Mirzə Cəlil nəsrində rast gəlinən tənqidi gülüş üsulları satirik şeir nümunələrində də dolğunluğu ilə özünü göstərməkdədir.

Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı prosesi özünü bədii dildə, sənətkarların dildən hansı şəkildə istifadə edə bilmə imkanları ilə daha çox müəyyənləşir. Əgər XII əsr, yaxud XVI əsr Azərbaycan ədəbiyyatında işlənən və ictimai məzmun daşıyan, nöqsanlara,

---

[1] M.Ə.Sabir. Hophopnamə. 2 cilddə, I c., Bakı: Şərq-Qərb, 2004, s. 145
[2] Yenə orada, s. 90
[3] M.Cəlal. Azərbaycanda ədəbi məktəblər. Bakı: Ziya-Nurlan, 2004, s. 97

şərə qarşı etirazı özündə ehtiva edən şeirin dili ilə XIX əsrdə, yaxud Sabirin satira dilində rast gəlinən xüsusiyyətlər, satirik üslub bir-birindən köklü şəkildə fərqlidir. Dil həmin dildir, dilə münasibət, ondan tikinti materialı olaraq istifadə məsələsi fərqlidir. Çoxsaylı misallar, nümunələr gətirmək mümkündür ki, klassik poeziyada lirik ovqatda işlənən söz və ifadələr XX əsr satirik poeziyasının dilində yeni məzmunda, yeni daxili keyfiyyətdə üzə çıxır.

**Nəticədə** dissertasiyada Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı ilə bağlı təhlillər, fikir və mülahizələr ümumiləşdirilir, yekun elmi qənaətlər çıxarılır. Tənqidi şeirin, satiranın qarşıya qoyduğu, poetik müstəvidə həll etməyə çalışdığı bədii-estetik qayəyə, xidmət etdiyi həyati ideallara diqqət yetirsək, burada işığa, irəliləyişə köklənərək şərə qarşı kəskin, amansız bir vuruş olduğunu görmək mümkündür. Azərbaycan ədəbiyyatının inkişafında, milli və ümumbəşəri dəyərlərin əldə olunmasında, saf, insani duyğuların, işıqlı ideallarn, təmiz niyyətlərin nəsillərdən-nəsillərə daşınmasında, insanların şərə, ədalətsizliyə, cahilliyə, hər cür naqisliklərə qarşı köklənməsində, şəxsiyyət olaraq öz mövqeyini ortaya qoymaq bacarığının formalaşmasında, bütövlükdə Azərbaycan insanının ayaqda durmasında poeziyanın, xüsusən də satirik ədəbiyyatın, satirik şeirin müstəsna əhəmiyyəti və rolu şəksiz-şübhəsizdir.

Tədqiqat işində tənqidi şeiri, satiranı doğuran cəhətlər göstərilmiş, həm ədəbiyyatşünas, həm də dilçi alimlərin bu sahədə elmi-nəzəri irsi diqqətlə araşdırılmış, ümumiləşdirmələr aparmaqla bərabər, satirik poeziyanın mahiyyətinə, spesifik cəhətlərinə orijinal səpkidə, müaisr elmimizin konseptual dəyərləndirmələri baxımından yanaşılmış, Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixində satirik poeziyanın yeri konkret nümunələr əsasında izlənilmişdir. Mövzunun əhatəli şəkildə araşdırlması və aparılmış çoxillik tədqiqat işinin məntiqi sonluğu olaraq aşağıdakı nəticə və təkliflər xülasə edilmişdir:

1. Satirik gülüşü doğuran həyatın sosial-mənəvi gerçəklikləridir. Bütün tarixi dövrlərdə sənətkarla yaşadığı mühit, ictimai quruluş arasında münasibətlər, baş verən hadisələrə şair, ədib baxışı özünü tənqidi şeirlərdə, satirik üslubda yazılan bədii örnəklərdə daha qabarıq şəkildə göstərmişdir. Tənqidi-satirik şeirlər xalqın mövqeyindən çıxış etmiş, cəmiyyət həyatının qayğılarından, insanların şərə qarşı münasibətindən doğulmuşdur. Lakin dövrdən, zamandan, cəmiyyət hadisələrindən hər cür narazılıq motivlərini, ictimai məzmun daşıyan tənqidi şeirlərin hamısını satirik poeziya sırasında təhlil etmək də düzgün olmazdı.

2. Araşdırmalar göstərir ki, elmi-nəzəri fikrində satiranın nəzəri dərkində ortaq mövqe nəzərə çarpmır. Belə ki, elmi-nəzəri mülahizələri ümumiləşdirməli olsaq, satiranın ədəbi növ, janr, bədii ifadə vasitəsi, bədii üslub, forma, bədii prinsip kimi dəyərləndirmələrin olduğu diqqəti cəlb edir. Hər bir təqdimatda, elmi-nəzəri baxışda müəyyən haqlı məqamlar olsa da, bütövlükdə satiranın mahiyyətini, bədii düşüncədə yerini dəqiq şəkildə ehtiva etmir, natamamlıq özünü göstərir. Fikrimizcə, satira bədii gülüşün ictimai-publisistik üslubda bədii ədəbiyyatın bütün növlərində, forma və janrlarında bu və ya digər şəkildə öz əksini, bədii inikasını tapan bədii yaradıcılıq üsuludur.

3. Klassik romantik poeziyada satirik üslubun olduğunu iddia etmək fikrindən uzaq olsaq da, Xaqanidən başlayaraq Vaqifə qədərki milli ədəbi irsimizdə elə bir sənətkara rast gəlmək çətindir ki, onun poetik irsində dövrdən, zəmanədən narazılıq motivləri olmasın. Bunlar daha çox birbaşa tənqid, yaxud həcv və təmsil yaradıcılığı şəklində, nadir hallarda isə kinayə və istehza ilə qələmə alınan poetik nümunələrdir. Həmin əsərlərin Azərbaycan ədəbiyyatında satirik üslubun, satirik poeziyanın təşəkkülündə və inkişafında müstəsna rolu xüsusi olaraq qeyd olunmalıdır.

4. Azərbaycan ədəbiyyatında milliləşmə, demokratikləşmə, realistləşmə meyillərinin daha çox XVII-XVIII əsrlər ədəbiyyatında müşahidə olunduğu gerçək həqiqətdir. Bədii ədəbiyyatda cəmiyyətdə baş verən proseslərə daha həssas münasibətin ifadəsi, fəal vətəndaşlıq mövqeyinin, milli vətənpərvərlik duyğularının ortaya qoyulması, şərin, cəhalətin, cahilliyin, hər cür rəzalətin pislənməsi, rədd olunması sonrakı mərhələlərdə, xüsusən XIX əsr ədəbiyyatında satirik üslubun yaranmasını şərtləndirilmişdir.

5. XIX əsrin birinci yarısında Azərbaycan ədəbiyyatında satirik şeirin əsas nümayəndələri haqqında danışarkən ilk öncə Q.Zakirin adı çəkilirsə, əsrin ikinci yarısında S.Ə.Şirvaninin satirik şeir yaradıcılığı öncül mövqedədir. Etiraf olunmalıdır ki, bəzi həcvlərini nəzərə almasaq, S.Ə.Şirvani yaradıcılığında ictimai satiranın çəkisi daha artıqdır.

6. Tədqiqat işində M.Ə.Sabirə qədərki satirik poeziyanın M.İ.Qasir, A.Nazir, H.F.Ordubadi kimi nümayəndələrinin yaradıcılığına da geniş yer verilmişdir. XIX əsr Azərbaycan ədəbiyyatı üçün xarakterik olan maarifçi realist satirik ədəbiyyat adlarını qeyd etdiyimiz şairlərin yaradıcılığında da diqqəti cəlb edir. Tənqidi ruhda qələmə alınan nümunələrdə millətin geriliyindən giley güclü şəkildə özünü göstərir, naqislik, cəhalət, şər pislənilir, mənəvi saflıq, insani kamillik təbliğ olunur.

7. XX əsrin əvvəllərində baş verən kəskin ictimai-siyasi hadisələr bədii ədəbiyyatın da öz mövqeyini dəqiqləşdirməsinə imkan verdi. Bədii ədəbiyyat, xüsusən satira seçilmişlərin deyil, geniş xalq kütləsinin, sadə insanların sözünü dedi, onların dərdlərini öz dərdi olaraq yaşaya bildi. Bu dövrdə poeziya, xüsusən satirik ədəbiyyat M.Cəlilin, M.Ə.Sabirin simasında sadə xalqla olduqca yaxın məsafədə durdu, onu maarifləndirməklə yanışı, həm də ayılmağa, öz haqqı-hüququ uğrunda həlledici savaşa hazır olmağa çağırırdı. Bu satiranın mərmiləri, topları daha uzaq hədəfləri tuturdu. Ona görə də onun yaradıcıları görünməmiş təzyiqlərlə, hədə-qorxularla, məhrumiyyətlərlə üzləşirdi. Bu cəhətdən XX əsr Azərbaycan ədəbiyyatında satirik poeziyanın inkişafı dövrün tarixi hadisələrinı özündə daha qabarıq şəkildə əks etdirə bilir.

8. Satirik şeir yaradıcılığında satirik tiplərə müəllifin gülüşü ifşa etdiyi hədəflərin islahından daha çox inkarına, aradan qaldırılmasına yönəldilmişdir. Satirikin güldüyü, cəmiyyətdən seçərək ifşa etdiyi mənəvi qüsurların inkarı, onların rədd olunması əslində cəmiyyət həyatının saflaşmasına, beləliklə də sivil inkişafa doğru irəliləyişin təminatına xidmət etmişdir. Satirik şeirdə özünüifşadan – satirik monoloq və satirik dialoqlardan geniş istifadə güldürməklə yanaşı, ciddi şəkildə düşündürmək, nəticə çıxarmaq bacarığını da tərbiyə etmişdir. Satirik fərd zahirən sanki ona aid olmayana gülsə də, daxilən bu olayda özünü görmüş, cəmiyyətdə tutduğu eybəcər mövqeyi, bur insan olaraq eybəcər siması satira aynasında tipin özünə də əyan olmuşdur.

9. M.Ə.Sabir satirası Azərbaycan ədəbiyyatı tarixində yeni ədəbi hadisə olaraq meydana gəlmiş, əruzun milli satirik şeirdə işlənmə bacarığında, satirik üslubda yeni şəkillərin – marş, tapmaca, taziyanə, sual-cavab, bəhri-təvillərin işlənməsində müasirlərinə, eləcə də davamçılarına şəxsi ədəbi nümunə göstərməklə satirik poeziyanı əlçatmaz zirvəyə qaldırmağa müvəffəq olmuşdur.

10. Dissertasiyada Sabir ədəbi məktəbinin yaranması və inkişafı ilə yanaşı, sovet dövründə satirik poeziya ənənələrinin zəifləməsi səbəbləri, ən nəhayət, «Kirpi» satirik jurnalının nəşri zərurəti, yeni nəsil satiriklərinin meydana gəlişi konkret misallar əsasında izah olunmuşdur. Dövrün satirik poeziya mənzərəsi nəzərdən keçirilərkən xüsusi olaraq deyilməlidir ki, keçən əsrin 30-cu illərində proletkultçuluq fəlsəfəsi, sinfi düşmən axtarışı kampaniyası, marksizm-leninizm mövqeyinin bədii ədəbiyyata, xüsusən dövrün satirik poeziyasına,eləcə də ”Kirpi”yə aşıladığı ümumi bir xofun, qorxunun nəticəsi olaraq, satirada dişsizlik, bəsitlik müşahidə olunmuşdur.

Odur ki, sovet dönəmində bədii ədəbiyyata partiyanın təzyiqi, təpkisi daha çox satirik poeziyanın inkişafına öz mənfi təsirini göstərməyə bilməzdi. Müxtəlif partiya sənədlərində, bədii ədəbiyyatla bağlı verilən qərarlarda satiranın inkişafı zərurəti söylənilsə də, nədən yazmaq, necə yazmaq tapşırığı yaradıcı insanların imkanlarını məhdudlaşdırmış, qeyri-sağlam ədəbi məhsulların yaranmasına səbəb olmuşdur. Bununla belə müxtəlif şairlərin ədəbi irsində ortaya çıxan müvəffəqiyyətli satirik nümunələrin həyati zərurətdən yarandığı da istisna olunmur. Sovet cəmiyyətində məlum siyasi yumşalmalardan sonra demokratik meyillər güclədikcə keçən əsrin 60-80-cı illərində satirik poeziyanın yenidən aparıcı mövqeyə çıxdığını, qismən də olsa cəmiyyətin aynası kimi çıxış etdiyini söyləmək mümkündür.

11. Dissertasiyada müstəqillik dövrü ədəbiyyatımızda Sabir satirik şeir ənənələrinin güclü şəkildə yaşadığı, cəmiyyətdən, zamandan gələn mövzuların satirik şeir üslubunda qələmə alınması müxtəlif şairlərin yaradıcılığında izlənilmiş, cəmiyyətin tənqidi satirik gülüşə, mənəvi durulaşmaya ehtiyacı göstərilmişdir. Tədqiqat işində üslub axtarışları və satirik şeirdə bədii dil, ifşa üsulları barədə də əhatəli söhbət aparılır.

Dissertasiyada satirik poeziyanın təşəkkülü və inkişafında alleqoriyanın, təmsil yaradıcılığının, eləcə də XX əsr şairlərinin ədəbi irsində özünü göstərən meyxana üslubunun da xüsusi yeri olduğu əsaslandırılmışdır.

Ümumiyyətlə, M.F.Axundzadə ilə başlanan və ədəbi məktəb səviyyəsinə yüksələn satirik ədəbiyyat, M.Ə.Sabirin bayraqdarı olduğu yeni tipli satirik şeirimiz qarşıya qoyduğu hədəflərə nail ola bilmişdir. Bu ədəbiyyat öz təsir dairəsini bənzərsiz satira örnəkləri ilə genişləndirmiş, milli satirik poeziyanın ölkəmizin sərhədlərindən xeyli uzaqlarda da özünə tərəfdaş tapmağa, örnək kimi qəbul olunmağa müvəffəq olmuş, bütövlükdə Azərbaycan ədəbiyyatını dünya ədəbiyyatı müstəvisində tanıtdırmağa nail ola bilmişdir.

Dissertasiya işinin əsas müddəaları müəllifin aşağıdakı monoqrafiya və məqalələrində əksini tapmışdır:

**Monoqrafiyalar:**

1. Azərbaycan poeziyasında satira (təşəkkül dövrü və inkişaf mərhələləri). Bakı: Elm və Təhsil, 2010, 8,5 ç.v.
2. Müasir Azərbaycan poeziyasında Sabir satira ənənələri, Bakı: Elm, 2012, 18 ç.v.

**Elmi məqalələr:**

3. Satirik ədəbiyyatımızın təşəkkülündə Xaqani Şirvaninin rolu və

mövqeyi / M.Füzuli adına AMEA Əlyazmalar İnstitutu, Filologiya məsələləri, 2003, №4, s.132-144
4. XIX əsr satirik poeziyamız XX əsr tənqid və ədəbiyyatşünaslığında // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, 2004, №1, s.125-129
5. Ədəbiyyatşünaslığımızda satirik poeziya problemi / Tədqiqlər AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2004, №2, s.292-296
6. Baba bəy Şakir və XIX əsr Azərbaycan satirası // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, 2004, №2, s.44-51
7. Xaqaninin satiraları // Lənkəran Dövlət Universitetinin Xəbərləri, 2004, N 3, s. 27-34
8. Nəsiminin satirik şeir yaradıcılığı // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, 2004, 3№, s.232-236
9. Milli ədəbiyyatşünaslığımızda XIX əsr satirik poeziyanın nəzəri dərki problemi / Tədqiqlər (AMEA Nəsimi adına Dilçilik İnstitutu), 2004, №3, s.312-317
10. Abasqulu ağa Bakıxanov Qüdsinin satirik şeir yaradıcılığı / M.Füzuli adına AMEA Əlyazmalar İnstitutu, Filologiya məsələləri, 2004, №4, s.46-53
11. Füzuli Sabirin ən böyük sələfidir // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri. 2004, № 4, s.133-138
12. Müharibə dövrünün satirik poeziyasında Hitler obrazı // ADPU-nun Xəbərləri, 2005, № 1, s. 62-66
13. F.Köçərli irsində satirik poeziyanın tədqiqi məsələləri / Elmi axtarışlar. XXX toplu, AMEA Folklor İnstitutu, 2006, s.247-252
14. Heyran xanımın ən məşhur qitəsi haqqında // ADPU-nun Xəbərləri. 2006, № 1, s. 206-209
15. Nəsimi və satira // Lənkəran Dövlət Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, Lənkəran, 2006, s. 17-21
16. Azərbaycan ədəbiyyatında satirik poeziyanın inkişafında həcv yaradıcılığının rolu / M.Füzuli adına AMEA Əlyazmaları İnstitutu, Filologiya məsələləri, 2007, №2, s.247-252
17. Abbas Ağa Nazir və onun «Molla və Şeytan» satirik mənzuməsi / Dil və Ədəbiyyat (Bakı Dövlət Universiteti), 2007, №2, s.96-100
18. Azərbaycan satira jurnallarında satirik şeirin inkişafı (1906-1920-ci illər) / Dil və Ədəbiyyat (Bakı Dövlət Universiteti),

2007, №3, s.86-88

19. Azərbaycan ədəbiyyatında satirik poeziyanın inkişafında təmsil yaradıcılığının rolu / M.Füzuli adına AMEA Əlyazmaları İnstitutu. Filologiya məsələləri, 2007, № 3, s. 211-216
20. XIX əsr Azərbaycan satirik şeirində folklor ənənələri / Elmi axtarışlar (AMEA Folklor İnstitutu) XXXII toplu, 2007, s. 137-142
21. Keçən əsrin 30-60-cı illər nəşrlərində satirik poeziya məsələləri / M.Füzuli adına AMEA Əlyazmaları İnstitutu, Filologiya məsələləri, 2008, №2, s.485-492
22. «Kirpi» jurnalında satirik şeir məsələləri (1950-1960-cı illər) / Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Mütərcim, 2008, №3, s.136-142
23. Keçən əsrin 60-80-ci illər Azərbaycan ədəbiyyatının satirik poeziyasında mövzu axtarışları / Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Mütərcim, 2008, №4, s.103-110
24. Azərbaycan satirik poeziyasının inkişafında Qasım bəy Zakirin rolu və mövqeyi // Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnalı, BDU, 2009, №2, s.158-160
25. S.Ə.Şirvani Q.Zakir ənənələrinin davamçısı kimi // Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, BDU, 2009, №3, s.119-121
26. Творчество М.А.Сабира как новый этап развития сатирической поэзии в Азербайджанской литературе // Журнал научных публикации аспирантов и докторантов. г. Курск, 2009, № 4, стр. 94-98
27. С.А.Ширвани как продолжатель традиции Г.Закира // Актуалные проблемы гумантитарных и естественных наук. Журнал научных публикаций. г. Москва, 2009, № 4, стр. 135-137
28. Роль и позиция Гасым бек Закира в развитии сатирической поэзии азербайджанской литературы // Обьединенный научный журнал. г. Москва, 2009, № 6, стр. 38-41
29. Сабировский этап в азербайджанской сатире / Материалы международной научно-практической конференции. 20-21 май, 2009, том VI, Чимкент, стр. 197-198
30. Ümumtürk ədəbiyyatında XIX əsr Azərbaycan satirik şeiri / Azərbaycanşünaslığın aktual problemləri. I Beynəlxalq elmi konfrans, 3-8 may, 2010-cu il, Bakı-Naxçıvan-Gəncə, s.29-32

31. Сатирическое творчество поэтов-лириков Азербайджана конца XX века // Вестник Казакский Национальный Университет имени Аль-Фараби, Серия филологическая, Алматы, 2010, Т 1-2, стр. 204-206
32. Maarifçi-realist ədəbiyyatın satirik irs konsepsiyası // ADU-nun Elmi Xəbərləri, Bakı, 2010, № 3, s. 208-212
33. Satirik ədəbiyyatın M.F.Axundzadə məktəbi // ADU-nun Elmi Xəbərləri. Bakı, 2010, № 4, s. 197-201
34. Satira: Tədqiqi və təbliği məsələləri / M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, Bakı: Elm və Təhsil, 2010, №8, s.475-482
35. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında satirik poeziyanın yeri / AMEA Məruzələr, Bakı: Elm, 2010, № 6, s. 146-151.
36. XIX əsr Azərbaycan satirik şeiri elmi-bədii düşüncədə // Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri, Humanitar elmlər seriyası, Lənkəran, 2010, s. 5-9
37. Сатира как художественно-творческий метод // Вестник Орловского Государственного Университета, Серия: Новые гуманитарные исследования. Г. Орел, 2011, № 2(16) март-апрель
38. Вопросы поэтики в азербайджанской сатирической поэзии // Вестник НУУЗ. Г. Ташкент, 2011, № 4/1, стр. 65-67
39. Sabirin satirik tipləri / Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti. Dayanıqlı inkişaf və idarəetmə modelləri: nəzəriyyə və praktika. Beynəlxalq konfransın tezisləri (23-25 dekabr) 2011-ci il, s. 67-68
40. Tufanlar önündə möhtəşəmlik / Azərbaycan Universiteti. Beynəlxalq elmi konfransın materialları. 9 iyun 2012, Bakı: Elm və təhsil, s. 428-430
41. Satirik poeziyanın dərki məsələləri (1960-1980-ci illər) / Filologiya məsələləri, 2012, № 8, s. 357-361

**Monoqrafiya barədə rəy:**

1. Mehdiyeva S. Azərbaycan ədəbiyyatında satirik poeziyanın nəzəri dərki məsələləri. “Kredo” qəzeti, 2013-cü il, 12 yanvar

**Агазаде Я.Б.**

## Становление и развитие сатирической поэзии в Азербайджанской литературе

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, четырех глав, заключения и списка литературы. В введении диссертационной работы обосновывается актуальность, научная новизна выбранной темы, цели и задачи, теоретическая и практическая значимость исследования, его методы, а также предоставляется информация об апробации данной темы. Рассматриваются исследования, проведенные на данную тему в сфере литературоведения и лингвистики, с историко-хронологиического аспекта предоставлены научные взгляды, занимаемом в художественной литературе, а также обосновывается значимость роли сатирической поэзии в развитии художественной литературы.

Первая глава работы именуется « История формирования и исследования сатирической поэзии в азербайджанской литературе». В данной главе рассматриваются направления исследования с научно-теоретической точки зрения, этапы критики и сатиры в литературе, рассматривая различные особенности решения проблемы, существующие в азербайджанской и мировой филологической мысли, проведены обобщения и подведены итоги, а также дана краткая информация о связях сатирического метода с фольклорной и письменной литературой.

Во второй главе исследованы проблемы усиления общественно-нравственных и социальных мотивов в сатирической поэзии, освещаются процессы перехода общественно-исторической несправедливости от критики к сатире, также рассматриваются возникновение сатирической поэзии в XIX веке как литературное событие и направления ее развития в творчестве конкретных литературных деятелей.

В третьей главе рассматриваются переход сатирической поэзии на новый этап своего развития в результате существующего в начале XX века исторической атмосферы, а также, говорится о появлении сатиры о новом качестве в лице Мирзы Джалила и Сабира а также повествуется о традициях сатирико-поэтической школы Сабира.

В четвертой главе рассмотрен новый этап развития общественно-художественного сознания, в частности период относительного ослабления политического давления советского режима на художественную литературу, в том числе развитие азербайджанской литературы в период независимости основываясь на поисках сатирической поэзией новых тем, идей и творческих свершений, показаны приемы художественного языка и формы изразличения в сатирической поэзии.

Заключении содержит выводы из всей работы.

**Y.B.Agazada**

## The Formation and Development of the Satirical Poetry in Azerbaijan Literature


### SUMMARY

The dissertation consists of an introduction, four chapters, a conclusion and the list of the used literature.

In the introduction the actuality, the aims and purposes, theoretical and practical significance of the theme are substantiated and the scientific novelty, methods and sources and approbation of the research work are informed about.

The researches connected with the theme and exists both in history of literature and linguistics are looked through, the scientific concepts about the place of the satire in fiction are presented in the historical-chronological aspect, the role of the satirical poetry in the development of belles-lettres is grounded.

The first chapter is titled as "The Formation and History of Development of the Satirical Poetry in Azerbaijani Literature". The directions of scientific-theoretical analysis of the formation stages of critique and satire in literature have been studied here, the generalizations have been carried out paying attention to the various issues connecting with solving the problem in Azerbaijani and world philological thought, final conclusions have been obtained, close information has been given on the folk-lore and the written literary sources of the satirical style.

In the second chapter in the satirical poetry the problems of intensification of the social-moral and social motives have been investigated, from the criticism of the social-historic injustice to the processes passing into pamphlet, as well as appearing the satirical poetry as a literary event in XIX century and its development directions have been analyzed on the basis of the concrete literary figures' creative activity.

The third chapter informs that at beginning of XX century the satirical poetry entered the new stage of development as a result of existing historical situation and satire appeared in a new quality due to the creative activities of Mirza Jalil Mammadguluzada and Mirza Alakbar Sabir . The traditions of Sabir's satirical poetry school have been dealt with here, too.

In the fourth chapter in the new stage of the social-artistic consciousness, especially in the period when the soviet regime reduced its political pressure on fiction partly, as well as in the period of independence the place of the satirical poetry in the development of Azerbaijan literature has been looked through on the basis of the theme, idea and artistic search. Here is also shown the artistic language and the ways of exposure.

The results obtained during the process of the investigation have been summed up in the conclusion.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ**

*На правах рукописи*

**ЯДУЛЛА БАБИР оглы АГАЗАДЕ**

# СТАНОВЛЕНИЕ И РАЗВИТИЕ САТИРИЧЕСКОЙ ПОЭЗИИ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

5716.01 – Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора филологических наук

**БАКУ – 2013**